HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR

# Vergilər



Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV

AZƏRBAYCAN VERGİLƏR NAZİRLİYİ

№ 02 (793) ▪ 13 yanvar 2016 www.vergiler.az Qiyməti: 55 qəp.

# Prezident İlham Əliyev: «2015-ci ildə iqtisadi inkişafa nail olmaq böyük nailiyyətdir»

*Yanvarın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2015-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilib*



İclası giriş nitqi ilə açan dövlətimizin başçısı 2015-ci ildə dünyada və regionda iqtisadi, siyasi və hərbi böhranın daha da dərinləşdiyini, qanlı toqquşmaların davam etdiyini bildirib: «Bizim regionumuzda isə iqtisadi böhranla yanaşı, siyasi və hərbi böhran müşahidə olunur. Əfsuslar ki, mövcud olan münaqişələr 2015-ci ildə öz həllini tapmadı. Əksinə, dünyada və xüsusilə bizim regionumuzda yeni təhlükə ocaqları yaranmışdır. Əlbəttə ki, bu hadisələr regionumuzun ümumi inkişafına mənfi təsir göstərmişdir».

Prezident İlham Əliyev bildirib ki, Azərbaycan 2015-ci ildə uğurla inkişaf edib, qarşıda duran bütün vəzifələr icra edilib, ölkəmizin beynəlxalq nüfuzu daha da artıb: «2015-ci ildə Azərbaycan iqtisadiyyatı inkişaf etmişdir. Bu da çox müsbət haldır. Əlbəttə ki, əvvəlki illərdə olan inkişaf əldə edilməmişdir. Bu da mümkün deyildi. Çünki qeyd etdiyim kimi, neftin qiyməti 3-4 dəfə aşağı düşmüşdür. Manatın məzənnəsi devalvasiyaya uğramışdır. Bu da qaçılmaz idi. Çünki neftin qiymətinin 3-4 dəfə aşağı düşməsi imkan vermirdi ki, manatın məzənnəsi əvvəlki səviyyədə qalsın. Eyni zamanda, bizim qonşu ölkələrdə də milli valyutalar 100 faiz, bəzi hallarda ondan da çox dərəcədə devalvasiyaya uğramışdır. Belə olan halda Azərbaycanda istehsal olunan məhsullar öz rəqabət qabiliyyətliliyini itirirdi, bizim istehsalçılara çox böyük təzyiq göstərilirdi. Sadəcə olaraq, manatı əvvəlki səviyyədə saxlamaq qeyri-mümkün idi. Yəni, bu, qaçılmaz bir addım idi. Bunun səbəbi Azərbaycandan kənarda yaranmışdır. Neftin qiymətinin kəskin şəkildə aşağı düşməsini mən şəxsən iqtisadi amillərlə, sırf iqtisadi amillərlə bağlaya bilmərəm. Çünki dünya iqtisadiyyatı o qədər tənəzzülə uğramayıb ki, neftin qiyməti 3-4 dəfə aşağı düşsün. Mənim fikrimcə, burada ilk növbədə siyasi amillər öz rolunu oynayıbdır».

Ötən il Azərbaycanda ümumi daxili məhsulun 1 faizdən çox, sənaye istehsalının 2,4 faiz, qeyri-neft sənayesinin isə 8,4 faiz artdığını qeyd edən dövlətimizin başçısı bunun ölkə iqtisadiyyatında böyük hadisə olduğunu bildirib: «Bu, məni çox sevindirir. Çünki bu, son illər ərzində qeyri-neft sektorunun inkişafı deməkdir, aparılan islahatların nəticəsidir. Hesab edirəm ki, qeyri-neft sənayesinin 8,4 faiz artması bizim əsas göstəricimizdir. Keçən il ölkə iqtisadiyyatına 20 milyard dollara yaxın sərmayə qoyulmuşdur. Bunun yarısı xarici sərmayədir. Bu da çox müsbət haldır. Azərbaycan xarici investorlar üçün cəlbedici ölkə kimi öz potensialını təqdim edir. Başqa iqtisadi göstəricilər də müsbət dinamikanı göstərir. Yəni, 2015-ci ildə bütün bu geosiyasi və iqtisadi amilləri nəzərə alsaq, iqtisadi inkişafa nail olmaq özlüyündə böyük nailiyyətdir».

Ötən il bütün sosial proqramların icra edildiyini diqqətə çatdıran Prezident İlham Əliyev aztəminatlı ailələrə dövlət dəstəyi tədbirlərinin davam etdirildiyini, 112 min ailənin, təqribən 500 minə yaxın insanın hər ay dövlətdən orta hesabla 152 manat yardım aldığını və il ərzində verilən bu məbləğin 7 faiz artdığını xatırladıb. Qeyd edib ki, keçən il sosial infrastruktur layihələri vaxtında icra edilib: «Baxmayaraq ki, bizim gəlirlərimiz azalıb, ancaq bu sahəyə biz vəsaiti təşkil edə bilmişik. Altmışa yaxın tibb müəssisəsi tikilib-təmir edilib, 20-dən çox məktəb təmir edilib-tikilib və hazırda 23 məktəbdə təmir işləri aparılır. Uşaq bağçalarının tikintisi davam edir. Yəni, sosial infrastruktur layihələri Dövlət İnvestisiya Proqramında nəzərdə tutulmuşdur və onlar icra edildi, bu il də icra edilməlidir».

2015-ci ildə regionların sürətlə inkişaf etdiyini diqqətə çatdıran dövlətimizin başçısı bildirib ki, müvafiq Dövlət Proqramının icrasının təmin olunması ilə bağlı dəfələrlə bölgələrə səfər edərək vəziyyətlə tanış olub: «Görürdüm ki, hər bir yerdə inkişaf, tərəqqi var, yeni sənaye müəssisələri açılır. Yüz mindən çox yeni iş yerləri açılmışdır ki, onlardan 84 mini daimi iş yeridir. Bununla bərabər, onu da deməliyəm ki, 40 min iş yeri bağlanmışdır. Ancaq buna baxmayaraq, 84 min daimi iş yeri açılmışdır, 40 min iş yeri bağlanmışdır. Yenə də burada biz müsbət dinamikanı görürük».

Ötən il enerji siyasətinin uğurlarına toxunan dövlətimizin başçısı TANAP layihəsinin əhəmiyyətini qeyd edib, ilk dəfə keçirilən birinci Avropa Oyunlarından danışıb, ölkəmizdə təşkil olunan bu mötəbər idman tədbirinin bütün dünyaya Azərbaycanın imkanlarını göstərdiyini, respublikamızda müasir idman, nəqliyyat və xidmət infrastrukturunun yaradıldığını bildirib: «2015-ci ildə ölkəmizin həyatında tarixi hadisə baş vermişdir. İlk dəfə olaraq Avropa Oyunları keçirilmişdir. Azərbaycan bu Oyunları ən yüksək səviyyədə keçirə bilmişdir. Baxmayaraq ki, Oyunların keçirilməsi üçün cəmi 2 il yarım vaxtımız var idi, biz bu Oyunları Yay Olimpiya Oyunları səviyyəsində keçirdik. Bütün Avropaya və dünyaya müstəqil ölkəmizin imkanlarını, xalqımızın qonaqpərvərliyini, gözəl Bakı şəhərimizi göstərdik. Azərbaycan reallıqlarını 6 min idmançı, minlərlə qonaq öz gözləri ilə görə bilmişlər. Bu reallıqlar bizim nüfuzumuzu daha da artırır və gələcəkdə Azərbaycana qoyulacaq investisiyaların həcmini, Azərbaycana gələcək turistlərin sayını artıracaq. Yəni Avropa Oyunları sadəcə olaraq, dünyaya bizim təqdimatımız deyildi. Onun çox böyük praktiki nəticələri olacaqdır».

Ötən il Azərbaycanın siyasi həyatında mühüm hadisələrdən biri olan parlament seçkilərinə də diqqət çəkən dövlətimizin başçısı seçkilərin ədalətli, şəffaf və demokratiya şəraitində keçirildiyini xatırladıb, bütün beynəlxalq müşahidəçilərin, o cümlədən Avropa Şurasının, MDB ölkələrinin və digər nüfuzlu təşkilatların nümayəndələrinin parlament seçkilərini birmənalı şəkildə yüksək qiymətləndirdiklərini diqqətə çatdırıb.

Sonra maliyyə naziri Samir Şərifov, Baş nazirin müavini, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Əli Həsənov, kənd təsərrüfatı naziri Heydər Əsədov 2015-ci ildə görülən işlər və qarşıda duran vəzifələrlə bağlı məruzə ediblər.

Yekun nitqində Prezident İlham Əliyev 2016-cı ildə qeyri-neft sektorunun inkişafının prioritet olacağını, neftdən asılılığın minimuma endirilməsi ilə bağlı tədbirlərin görüləcəyini bildirib, Dövlət Neft Fondunun vəsaitlərinin qorunması, Fonddan dövlət büdcəsinə transferlərin azaldılması, vergi bazasının genişləndirilməsi, gömrük rəsmiləşdirilməsi və ixrac-idxal əməliyyatlarının şəffaflığının təmin olunması, maliyyə nəzarətinin gücləndirilməsi ilə bağlı tapşırıqlarını verib:

- Biz 2016-cı ildə iqtisadi inkişaf templərini təmin etməliyik. Bu, asan məsələ deyil. Xüsusilə burada səslənən fikirlər və ümumiyyətlə, keçən il müşahidə olunan mənzərə deməyə əsas vermir ki, 2016-cı ildə dünyada iqtisadi böhran başa çatacaq. Belə olan halda biz daha da səmərəli işləməliyik və iqtisadi inkişaf templərini daxili resurslar hesabına, düşünülmüş siyasət, islahatlar, o cümlədən struktur islahatları nəticəsində təmin etməliyik.

Xüsusilə qeyri-neft sektorunun inkişafı böyük əhəmiyyət daşıyır. Son illər ərzində bu istiqamətdə böyük işlər aparılmışdır. Əgər biz vaxtilə qeyri-neft sektorunun inkişafı ilə məşğul olmasaydıq, bu gün iqtisadi inkişafımız o qədər də uğurlu olmazdı. İqtisadi şaxələndirmə, qeyri-neft sektorunun inkişafı 2016-cı ildə iqtisadi sahədə əsas prioritet olacaqdır. Əminəm ki, biz bu il ərzində bu istiqamətdə daha da böyük uğurlara nail olacağıq.

Ümumiyyətlə, ümumi daxili məhsulumuzun strukturu müsbətə doğru dəyişir, qeyri-neft sektorunun çəkisi artır. Bu, müsbət haldır. Neftdən asılılıq azalır. Ancaq biz bu asılılığı minimum səviyyəyə endirməliyik ki, gələcəkdə neftin qiymətindən asılı olmayaq. Vəzifə bundan ibarətdir. Hesab edirəm ki, biz düşünülmüş siyasət, gərgin iş nəticəsində buna nail ola biləcəyik.

Bu il biz xarici investisiyaları Azərbaycana daha böyük həcmdə cəlb etməliyik. Düzdür, bu gün dünya miqyasında xarici investisiyalar uğrunda mübarizə aparılır. Ancaq Azərbaycan xarici sərmayə üçün çox gözəl ölkədir, xarici sərmayələr qorunur. Düzdür, sərmayələr daha çox neft-qaz sektoruna qoyulur. Ancaq, eyni zamanda, son vaxtlar qeyri-neft sektoruna da xarici sərmayə qoyulması müşahidə olunur. Biz çalışmalıyıq ki, xarici sərmayəni ölkəmizə cəlb edək, xüsusilə qeyri-neft sektoruna. O sahələrə ki, öz növbəsində bu sahələrin inkişafı ixrac potensialımızı gücləndirəcək və idxaldan asılılığımızı azaldacaq. Hesab edirəm ki, kənd təsərrüfatı sektoruna, sənaye sektoruna, xidmət sektoruna xarici sərmayəni cəlb etmək bizim üçün daha da məqbul sayıla bilər və hökumət bu istiqamətdə ciddi iş aparmalıdır. Əvvəlki illərdə daha çox bizə olan müraciətlər əsasında xarici sərmayəni cəlb edirdik. Xarici investorlar gəlirdilər, təkliflər verirdilər, müvafiq orqanlar buna baxırdılar və ondan sonra qərar qəbul olunurdu. Ancaq indiki şəraitdə biz özümüz fəal işləməliyik. Bizim iqtisadi qurumlarımız, eyni zamanda, xaricdəki səfirliklərimiz də bu işlərə qoşulmalıdırlar, potensial investorlara Azərbaycan haqqında daha da geniş məlumat verilməlidir. Bizim imkanlarımız, artan iqtisadi inkişafımız, genişlənən daxili bazarımız, eyni zamanda, regional bazarlar hesab edirəm ki, potensial investorlar üçün cəlbedici ola bilər. Bir sözlə, bu istiqamətdə çox ciddi iş aparılmalıdır və nəticələr olmalıdır.

Eyni zamanda, yerli sahibkarlar da Azərbaycan iqtisadiyyatına daha çox sərmayə qoymalıdırlar. Son vaxtlar biz bunu görürük. Xüsusilə dövlət tərəfindən verilən güzəştli kreditlər hesabına biz bunu görürük. Əlbəttə, bu, dövlət siyasətidir. Bu kreditlər sahibkarlara verildikdə də onların qarşısında şərt qoyulur ki, sərmayəni məhz bu və ya digər sahəyə yatırsınlar. Ancaq bizim artıq geniş biznes təbəqəmiz, iş adamlarımız var. Onlar da öz sərmayələrini ölkə iqtisadiyyatına qoymalıdırlar. İlk növbədə sərmayəni iqtisadiyyatın real sektoruna - istehsal sahələrinin yaradılmasına, kənd təsərrüfatına, sənayenin inkişafına və xidmət sektoruna yatırmalıdırlar. Dövlət qurumları isə - həm mərkəzi dövlət orqanları, həm yerlərdəki icra orqanları onlar üçün bütün şəraiti yaratmalıdırlar. Onların işinə müdaxilə etməməlidirlər, əksinə, onları təşviq etməlidirlər və mütəmadi qaydada məlumat verməlidirlər ki, hər bir bölgə üzrə nə qədər investisiya qoyulubdur, investisiyanın mənbəyi nədir. Çünki dövlət investisiyaları təbii ki, dövlət tərəfindən qoyulur. Burada yerli və mərkəzi icra orqanlarının fəaliyyəti o qədər də önəmli deyil. Ancaq əlbəttə ki, mərkəzi və yerli dövlət qurumları özəl xarici və yerli investisiyaları cəlb etməyə çalışmalıdırlar.

Biz ölkəmizin valyuta ehtiyatlarını qoruyuruq və qorumalıyıq. Əvvəlki illərdə Neft Fondundan dövlət büdcəsinə böyük məbləğdə transfert olunurdu. Bunun da təbii səbəbləri var idi. Biz çalışırdıq ki, əsas infrastruktur layihələrini maksimum tez bir zamanda icra edək və buna nail ola bilmişik. Bu gün deyə bilərəm ki, Azərbaycanda əsas infrastruktur layihələri icra edilibdir. Elektrik enerjisi ilə bağlı generasiya güclərimiz kifayət qədər böyükdür, qazlaşdırma uğurla aparılır, içməli su layihələri, yolların tikintisi. Yəni, Dövlət Neft Fondunun transfertlərinin məqsədi bundan ibarət idi ki, infrastruktur, biznesin inkişafı üçün daha yaxşı şərait yaradılsın və biz buna nail ola bilmişik. İndiki şəraitdə biz Neft Fondunun vəsaitini qorumalıyıq. Əvvəlki illərdə apardığımız siyasət davam etdirilə bilməz. Neft Fondundan dövlət büdcəsinə transfertlər bu il azalır və biz gələcəkdə də xüsusilə hər bir layihəyə, onun əhəmiyyətinə baxmalıyıq və məhz ondan sonra qərar qəbul edilməlidir.

Gömrük rəsmiləşdirilməsi və bütün idxal-ixrac əməliyyatları tam şəffaf aparılmalıdır. İnhisarçılığa qarşı daha da ciddi mübarizə aparılmalıdır. Hesab edirəm ki, bax, biz bu üç istiqamət üzrə fəal işləsək büdcə gəlirlərimizin məbləğini böyük dərəcədə artıra bilərik. Hesab edirəm ki, büdcəyə mövcud proqnozlardan daha çox vəsait daxil olmalıdır.

2016-cı ilin Dövlət İnvestisiya Proqramı yaxın günlərdə mənə təqdim edilməlidir. Bu proqramda əsas infrastruktur layihələri öz əksini tapacaqdır. Həmçinin dövlət sərmayəsi ölkəyə tez bir zamanda gəlir gətirə və idxalı əvəzləyə biləcək sahələrə qoyulmalıdır.

Maliyyə nəzarəti daha da gücləndirilməlidir. Xüsusilə Hesablama Palatasının işi daha da səmərəli şəkildə təşkil edilməlidir. Dövlət qurumlarının, dövlət şirkətlərinin xərclərinə çox ciddi nəzarət olmalıdır. Deyə bilmərəm ki, əvvəlki illərdə nəzarət lazımi səviyyədə idi. Bəzi hallarda dövlət qurumları, dövlət şirkətlərimiz lazım olmayan, səmərəsiz xərclər edirdilər. Buna son qoyulmalıdır. Burada maliyyə nəzarəti çox güclü, ciddi olmalıdır. Pozuntulara yol verən şəxslər ciddi cəzalandırılmalıdırlar.

Azərbaycanda bir neçə dövlət qurumu, dövlət şirkəti var ki, onlar ölkə iqtisadiyyatı üçün strateji əhəmiyyət daşıyır, dövlət inhisarındadır. Ancaq orada, o şirkətlərdə idarəetmə qaydaları dəyişdirilməlidir. Korporativ idarəetmə prinsipləri tətbiq edilməlidir. Dünyanın inkişaf etmiş ölkələrinin aparıcı korporasiyalarının təcrübəsi öyrənilməli və tətbiq edilməlidir. Bu şirkətlər tam şəffaf fəaliyyət göstərməlidirlər.

Bununla yanaşı, ictimai nəzarət mexanizmləri işə salınmalıdır. Mən dəfələrlə ictimai nəzarət haqqında fikirlərimi bildirmişəm. Amma hesab edirəm ki, ictimai nəzarət mexanizmləri işlənməlidir. Çünki sadəcə olaraq insanlardan tələb etmək ki, gedin o və ya bu sahəyə nəzarət edin, bu, çətin məsələdir. Burada lazımi səviyyədə həm ictimai fəallıq, həm də mexanizmlər olmalıdır. İctimai nəzarət mexanizmləri mütləq tətbiq edilməlidir. Hökumət bu məsələ ilə bağlı öz təkliflərini təqdim etsin. Təbii ki, heç bir vaxt israfçılığa yol verilməməlidir, xüsusilə indiki şəraitdə çox ciddi nəzarət olmalıdır.

Deyə bilərəm ki, bütövlükdə son illər ərzində apardığımız islahatlar öz nəticəsini verməkdədir. Beynəlxalq iqtisadi və maliyyə qurumları Azərbaycanda iqtisadi sahədə aparılan siyasəti yüksək qiymətləndirirlər. Dünyanın ən böyük və mötəbər qurumlarından biri olan Davos Dünya İqtisadi Forumu Azərbaycanı iqtisadiyyatın rəqabət qabiliyyətliliyinə görə 40-cı yerə layiq görüb. Bu, doğrudan da böyük nailiyyətdir. Aparıcı reytinq agentlikləri 2015-ci ildə bizim müsbət reytinqlərimizi təsdiq ediblər. Bu, doğrudan da çox böyük nailiyyətdir. Ancaq biz daha da səmərəli işləməliyik və hansı sahədə qüsur varsa, o qüsurlar, nöqsanlar aradan qaldırılmalıdır.

Biznes mühitinin yaxşılaşdırılması istiqamətində əlavə tədbirlər görülməlidir. Ötən il çox ciddi addımlar atılmışdır. Burada bu, səsləndi. Lisenziyaların sayı azaldılıb. İcazələrin sayı azaldılır. Bürokratik əngəllər aradan götürülür. Bu il də bu istiqamətdə daha da ciddi işlər aparılmalıdır və biznes ictimaiyyətinin təklifləri də nəzərə alınmalıdır. Onlarla mütəmadi qaydada əlaqələr saxlanılır. Ancaq indiki şəraitdə onların fikirləri hesab edirəm ki, daha da böyük əhəmiyyət daşıya bilər. Hansı problemlər var, onların biznes fəaliyyəti üçün əngəllər nədən ibarətdir ki, bunu biz aradan götürək və biznes mühitini daha da yaxşılaşdıraq.

Sahibkarlara güzəştli kreditlərin verilməsi təmin edilməlidir. Keçən il güzəştli şərtlərlə təxminən 250 milyon manat məbləğində kreditlər verilmişdir. Bunun böyük əksəriyyəti aqrar sektora, regionlara verilmişdir. 5 min 240 sahibkara güzəştli kreditlər verilmişdir. Bu il bu siyasət davam etdirilməlidir. Əlbəttə, indi bizim maliyyə imkanlarımız əvvəlki illərdəki kimi deyil, ancaq biz bu sahəyə mütləq vəsait təşkil etməliyik. Çünki bu, iqtisadiyyatın real sektoruna qoyulan sərmayədir. Bu sərmayə qoyuluşunda dövlət siyasəti tam öz əksini tapır. Çünki biz dövlət üçün lazım olan sahələri inkişaf etdirməliyik ki, idxalı əvəzləyə biləcək, ixrac qabiliyyətli məhsulları yetişdirək. Ona görə güzəştli kreditlərin məqsədyönlü şəkildə verilməsi öz müsbət rolunu oynayır. Bu ilin dövlət büdcəsində bu məqsədlər üçün ən azı keçən ilin səviyyəsində vəsait ayrılmalıdır. Nəzərə alsaq ki, verilən bu kreditlərin böyük hissəsi əvvəlcə götürülmüş və qaytarılmış kreditlər hesabına verilir, burada büdcə yükü o qədər də böyük olmayacaq. Olsa da yenə də bu çox önəmli və öz səmərəsini verən sahədir.

Mən bu barədə əvvəllər də öz fikirlərimi bildirmişdim. İndiki şəraitdə buna daha da böyük ehtiyac var. Özəl banklar daha çox iqtisadiyyatın real sektoruna kreditlər ayırsınlar. Dövlət özəl bankları dəstəkləyir. Ümumiyyətlə, bank sektorunda islahatlar aparılmalıdır. Bank sektorunda konsolidasiya aparılmalıdır. Özəl banklar ölkə iqtisadiyyatının inkişafında daha da fəal iştirak etməlidirlər. Əlbəttə ki, özəl banklar gəlir qazanmalıdırlar. Onlar üçün başqa alətlər bəlkə daha da cəlbedici ola bilər. Ancaq dövlət maraqları hər şeydən üstündür.

*Vergi bazası genişləndirilməlidir. Buna nail olmaq üçün kifayət qədər ehtiyatlar var.*
*Biz qeyri-formal iqtisadi fəaliyyəti leqal müstəviyə gətirməliyik və bu istiqamətdə çox ciddi addımlar atılmalıdır.*
*Vergi Məcəlləsinə edilmiş bir sıra dəyişikliklər artıq qüvvəyə minmişdir və daha da gözəl imkanlar yaradır*

**Davamı 2-ci səhifədə**

# Prezident İlham Əliyev: «2015-ci ildə iqtisadi inkişafa nail olmaq böyük nailiyyətdir»

**Əvvəli 1-ci səhifədə**

Ona görə özəl banklara tövsiyə olunmalıdır ki, daha çox iqtisadiyyatın real sektoruna vəsait ayırsınlar. Bu gün də əgər onların kredit portfelinə baxsaq görərik ki, iqtisadiyyatın real sektoruna daha da çox vəsait ayrılır. Ancaq hesab edirəm ki, biz bunu, bu siyasəti daha da gücləndirməliyik. Çünki bu gün ölkə qarşısında duran əsas vəzifələr qeyri-neft sektorunun inkişafı, idxalı əvəzləyən, ixrac qabiliyyətli məhsulların istehsalıdır ki, bu məhsullar ixrac edilərək ölkəmizə valyuta gətirir. Çünki valyuta gəlirlərimiz kəskin şəkildə aşağı düşüb. Bu sahədə əlbəttə ki, ilk növbədə kənd təsərrüfatı, emal sənayesi istiqamətinə, tikinti materialları istiqamətinə vəsait ayrılmalıdır ki, biz özümüzü bu məhsullarla daxili istehsal hesabına tam təmin edək.

İstehlak qiymətlərinə çox ciddi nəzarət etmək lazımdır. Manatın məzənnəsinin dəyişməsi ilə bağlı bəzi işbazlar qiymətləri süni şəkildə qaldırmaq istəyirlər. Əlbəttə ki, biz ərzaq məhsulları ilə bağlı müəyyən dərəcədə idxaldan asılıyıq. Hələ ki, özümüzü tam 100 faiz təmin edə bilməmişik. Ancaq o məhsullar ki, Azərbaycanda istehsal olunur, orada qiymət artımı ümumiyyətlə mümkün deyil, olmamalıdır. Ümumiyyətlə, mən bilirəm, məlumat da gəlir ki, natəmiz insanlar, işbazlar bax bu məzənnə məsələsindən sui-istifadə etmək istəyirlər. Buna son qoyulmalıdır. Süni bahalaşmaya son qoyulmalıdır və burada çox ciddi cəza tədbirləri görülməlidir. Biz sadəcə olaraq cərimələrlə kifayətlənməməliyik. Prokurorluq orqanları çox ciddi məşğul olsun. Bu vəziyyətdən öz şəxsi maraqları üçün istifadə etmək istəyənlərə qarşı çox ciddi cəza tədbirləri görülməlidir. Mətbuatda da bu, işıqlandırılmalıdır ki, buna son qoyulsun.

Bu il pensiya və əməkhaqqının qaldırılması nəzərdə tutulmalıdır. Hökumət təkliflər hazırlasın. Əlbəttə, indiki şəraitdə bunu etmək o qədər də asan məsələ deyil. Ancaq mən dəfələrlə demişəm ki, biz çox güclü sosial siyasət aparırıq. Giriş sözümdə qeyd etdiyim kimi, sosial infrastrukturun yaradılması, ünvanlı dövlət sosial yardımının təmin edilməsi üçün çox ciddi addımlar atılmışdır. Böyük vəsait tələb edən addımlar atılmışdır. Ona görə, pensiyaların və əməkhaqlarının qaldırılması məsələsinə hökumət baxmalıdır, təkliflər verməlidir. Əlbəttə ki, dövlət büdcəsinə də düzəlişlər ediləcək, dürüstləşmə aparılacaq. Orada həm də sosial təminat məsələləri və investisiyayönümlü məsələlər öz həllini tapmalıdır.

Mən manatın devalvasiyası ilə bağlı fikirlərimi artıq bildirdim. Bu, bizdən asılı olan məsələ deyildi. Bir daha demək istəyirəm ki, neftin qiymətinin 3-4 dəfə aşağı düşməsi, qonşu ölkələrdə milli valyutaların devalvasiyası bu addımı qaçılmaz etmişdir. Bizim vəzifəmiz bu vəziyyətdən minimum itkilərlə çıxmaqdır. Əminəm ki, biz buna nail ola biləcəyik. Dediyim o məsələlər öz həllini tapmalıdır.

Biz bu il bütün sosial proqramları tam icra edəcəyik. Bu barədə heç kimin şübhəsi olmasın. O cümlədən məcburi köçkünlərin yaşayış problemlərinin həlli istiqamətində böyük vəsait nəzərdə tutulur. Ötən il 15 min köçkün yeni evlərə köçüb. 2014-cü ildə 20 min köçkün yeni evlərə köçüb və bu siyasət davam etdiriləcək. Dövlət Neft Fondunda bu məqsədlər üçün kifayət qədər vəsait nəzərdə tutulub.

Keçən il «Kənd təsərrüfatı ili» idi. Mən çox şadam ki, «Kənd təsərrüfatı ili»ndə kənd təsərrüfatı 6,6 faiz artmışdır. Bu, çox gözəl göstəricidir, qeyri-neft sektorunun inkişafıdır. Kənd təsərrüfatı sahəsində aparılan islahatlar da bax, bu vəziyyəti şərtləndirir. Bu islahatlar daha da dərinləşməlidir. Belə olan halda biz özümüzü ərzaq məhsulları ilə tam, yəni, 100 faiz təmin edə bilərik və ərzaq məhsullarının tərkibində yerli komponent daha da böyük həcmdə ola bilər. Vəzifəmiz isə özümüzü ərzaq məhsulları ilə 100 faiz təmin etməkdir. Ərzaq təhlükəsizliyi bu deməkdir.

İxrac qabiliyyətimizi artırmalıyıq. Çünki gələcəkdə bizim neft və qazdan başqa əsas ixrac məhsullarımız kənd təsərrüfatı məhsullarıdır. Xüsusilə nəzərə alsaq ki, ənənəvi bazarlarımıza çıxışımız var, biz yeni bazarlar axtarmalıyıq. Bizim kənd təsərrüfatı məhsulları üçün əsas bazarımız Rusiyadır. Rusiyada bizim məhsullara indi daha çox tələbat var. Biz bu tələbatı təmin etməliyik və Rusiya bazarına daha da böyük məhsulla çıxmalıyıq. Eyni zamanda, Qazaxıstanda müasir logistika mərkəzi tikilib, demək olar ki, hazırdır. Yaxın vaxtlarda biz ərzaq məhsullarımızı Qazaxıstana da ixrac etməyə başlayacağıq.

Nəzərə alsaq ki, keçən il meliorasiya işləri ilə bağlı çox ciddi addımlar atılmışdır, biz yararsız torpaqları dövriyyəyə buraxmalıyıq və minlərlə, on minlərlə hektar torpaq dövriyyəyə buraxılacaq. Artıq o torpaqlarda suvarma işləri təmin edilir və məhsuldarlığı, əkin sahələrini artırmalıyıq. Beləliklə, əminəm ki, biz bu il də kənd təsərrüfatında böyük artıma nail ola biləcəyik.

Dövlət İnvestisiya Proqramında infrastruktur layihələri öz əksini tapacaq. Onların içində içməli su layihələrini xüsusilə qeyd etmək istərdim. Çünki indi Azərbaycanda qazlaşdırma təxminən 90 faizə çatmışdır. Çox gözəl göstəricidir. «Azərişıq» indi bölgələrdə fəal iş aparır. Mən də bölgələrdə olarkən, vəziyyətlə maraqlanarkən yerli nümayəndələr, vətəndaşlar bildirirlər ki, son vaxtlar bölgələrdə elektrik enerjisi ilə təchizat daha da yaxşılaşdı. Elə etməliyik ki, bölgələrdə elektrik enerjisi ilə təchizat Bakıdakı kimi olsun. Ona görə, kifayət qədər generasiya güclərimiz yaradılıb. İndi əsas məsələ ondan ibarətdir ki, biz insanlara bu elektrik enerjisini fasiləsiz çatdıra bilək.

Sənaye istehsalı istiqamətində çox ciddi iş aparılmalıdır. Texnoparklar, sənaye klasterləri yaradılmalıdır. Bütün regionlarda sənaye zonaları yaradılmalıdır. Bu məsələ ilə bağlı mən əvvəlki müşavirələrdə də öz fikirlərimi bildirmişdim. İstəyirəm bu istiqamətdə işlər daha da sürətlə getsin ki, biz artıq nəticələri görək. Çünki artıq neçə vaxtdır ki, biz bu barədə danışırıq, işlər gedir, amma hələ nəticələr yoxdur. Burada mərkəzi icra orqanları, bu sahəyə cavabdehlik daşıyan orqanlar və xüsusilə, yerli icra orqanları da fəal işləməlidirlər. Onlar bunu təşkil etməlidirlər, yerlər ayırmalıdırlar, şərait yaratmalıdırlar. Onların işi bundan ibarətdir. Ona görə, hesab edirəm ki, bizim yerli icra orqanları daha da səmərəli işləməlidirlər, təşəbbüs göstərməlidirlər. Ancaq oturub mərkəzdən göstəriş gözləməməlidirlər. Bu, onların gündəlik işidir. Hər bir rayonun iqtisadi və sənaye potensialı güclənməlidir. Buna imkanlar var. Ancaq bizim əksər rayonlarımız dotasiya ilə yaşayır. Əvvəlki illərdə biz buna, necə deyərlər, göz yuma bilərdik. Böyük gəlirlərimiz var idi və bu dotasiyaları biz verirdik. Ancaq nə üçün bizim rayonlarımız dotasiya ilə işləməlidirlər? Bizim rayonlarımızın orta hesabla əhalisi o qədər də böyük deyil. Onlar özləri iqtisadi cəhətdən daha səmərəli işləsələr bütün xərclərini bağlaya bilərlər. Amma gözləyirlər ki, bunlara nə qədər vəsait ayrılacaq. Onsuz da vəsait ayrılır. Bax, dövlət hesabına yollar, qaz xətləri, su xətləri çəkilir, hətta sayğaclar da qoyulur. Hansı ölkədə dövlət hesabına sayğaclar qoyulur?

Bütün infrastruktur layihələri icra edilir, böyük sərmayə qoyulur, turizm infrastrukturu yaradılır. Kim bunu yaradır? Dövlət və özəl şirkətlər. Amma yerlərdə onlar daha fəal işləməlidirlər. Onların qarşısında vəzifə qoyuram ki, hər rübdə bir dəfə görülən işlərlə, açılan yeni iş yerləri ilə, açılan müəssisələrlə bağlı məlumat versinlər. Yəni, onlar da nəticə çıxarsınlar. Dövlət onsuz da öz siyasətini aparacaq və lazımi sərmayəni qoyacaq. Ancaq mən əminəm ki, bizim bütün rayonlarımız daha səmərəli işləyə bilərlər və daha da yaxşı nəticələr olacaqdır.

Rayonlarda sənaye zonalarının yaradılması ilə bağlı mən artıq bir neçə dəfədir ki, məsələ qaldırıram. Ancaq indi bir pilot layihəsi icra edilir, Neftçala rayonunda. Başqa rayonlarda niyə bunlar icra edilmir? Çünki biganəlik göstərirlər, buna yol vermək olmaz. Ona görə, hər bir icra başçısının vəzifəsi bundan ibarətdir. Kim bu vəzifənin öhdəsindən gələ bilmirsə işdən kənarlaşdırılacaq.

Bu il biz struktur islahatları aparmalıyıq. Buna ehtiyac var. Ümumiyyətlə, daha da çevik, operativ idarəetmə mexanizmi işlənməlidir. Bəzi hallarda bəzi qurumlar bir-birinin fəaliyyətini təkrarlayırlar. Buna yol vermək olmaz.

Struktur islahatları mütləq aparılmalıdır. Bəzi hallarda süni şəkildə iş yerləri yaradılır. Misal üçün, insanlar işləmirlər, amma onlara maaş yazılır. Sonra o maaş onun-bunun cibinə gedir. Bu hallara son qoyulmalıdır. Ona görə, çox ciddi maliyyə nəzarəti, ictimai nəzarət, dövlət nəzarəti olmalıdır. Buna son qoyulmalıdır. Lazım olmayan qurumlar ləğv edilməlidir və bu istiqamətdə yaxın gələcəkdə addımlar atılacaqdır.

İnformasiya-kommunikasiya sektorunun inkişafı istiqamətində daha da ciddi addımlar atılmalıdır. Bu sektorun çox böyük potensialı var. Bu sahədə inkişaf müşahidə olunur. Ancaq bu sektorda da tam şəffaflıq təmin edilməlidir və dövlət bu sektorun inkişafından gələn xeyrini görməlidir. Çünki bu günə qədər ancaq dövlət investisiyaları qoyulur, kreditlər verilir, informasiya-kommunikasiya istiqamətində layihələr icra edilir. İki peykimiz var. Yəni, dövlət artıq bunun faydasını, gəlirini görməlidir. Amma əfsuslar olsun ki, bəzi hallarda gəlir başqa ciblərə gedir, dövlət xeyir götürmür, burada da tam şəffaflıq təmin edilməlidir. Arada gəzən şirkətlər burada əsassız qaydada böyük məbləğdə pul qazanırlar, onların fəaliyyəti dayandırılmalıdır. Yəni, bütün gəlirlər dövlətə, büdcəyə gəlməlidir və bunun hesabına informasiya-kommunikasiya texnologiyaları sektoru bundan sonra da inkişaf edəcək. Dövlət artıq bu sahəyə kifayət qədər, artıqlaması ilə vəsait ayırıb. Yoxlamalar göstərir ki, bu vəsaitdən vicdansızlıqla istifadə olunub. Burada israfçılıqdan söhbət getmir, burada böyük cinayətdən söhbət gedir. İndi prokurorluq ciddi məşğuldur. Bir malın qiyməti bir neçə dəfə şişirdilir - 3 dəfə, 4 dəfə. Bu, cinayətdir, vicdansızlıqdır, dövlətə xəyanətdir və bu əməlləri törədən insanlar indi məsuliyyətə cəlb olunurlar və bu, hamıya dərs olmalıdır, bütün qurumlara da dərs olmalıdır. Ona görə, əminəm ki, çox ciddi nəzarət belə halların təkrarlanmaması üçün yaxşı imkanlar yaradacaq.

İnformasiya-kommunikasiya texnologiyaları sektoru inkişaf etməlidir, xarici şirkətlər də buna maraq göstərirlər. İndi Azərbaycanda kompüter istehsalı başlanır. Bu da çox müsbət haldır və bizim intellektual potensialımızı göstərir. Eyni zamanda, onu göstərir ki, xarici firmalar buna maraq göstərirlər. Burada tam şəffaflıq yaradılmalıdır.

Biz turizm sektorunun inkişafı üçün yerli və xarici sərmayəni cəlb etməliyik. Dövlət artıq kifayət qədər böyük işlər görübdür. Biz dövlət hesabına «Şahdağ» kurort zonasını yaratmışıq. Düzdür, sonra özəl qurumlar da orada otellər, mehmanxanalar tikiblər. Ancaq bütün infrastruktur və birinci otel dövlət hesabına tikilib. Nəyə görə? İnsanlara şərait yaratmaq, o bölgəni - şimal bölgəsini inkişaf etdirmək, iş yerləri yaratmaq, xarici turistləri cəlb etmək və gələcəkdə gəlir qazanmaq üçün. Budur məqsəd. Burada həm sosial, həm regional, həm də iqtisadi siyasət birləşir. Ona görə, turizm üçün bütün başqa məqbul zonalarda turizm geniş inkişaf etməlidir. İndi bizim belə zonalarımız var. «Şahdağ» mərkəzi, Qəbələ beynəlxalq turizm zonasına çevrilib. İndi Naftalan beynəlxalq kurort şöhrətini özünə qaytarır. Cənub zonasında, qərb zonasında kifayət qədər gözəl imkanlar var. Sadəcə olaraq yerli şirkətlər və yaxşı olar ki, xarici şirkətlər sərmayə qoysunlar və biz turistlərin axınını təmin etməliyik. Bütün süni əngəllər aradan götürülür. Vizalarla bağlı mövcud olan problemlər aradan götürülür ki, Bakıya, Azərbaycana səyahət etmək istəyən xarici qonaq vaxt itirmədən bilet alıb müvafiq prosedurlardan keçib gələ bilsin, istirahət edə bilsin.

Bu il nəqliyyat dəhlizlərinin daha da səmərəli işləməsi ilə bağlı çox ciddi addımlar atılmalıdır. Keçən ilin sonunda ciddi addımlar atılmışdır. Tranzit yüklərin Azərbaycan ərazisindən daşınması üçün Koordinasiya Şurası yaradılmışdır. Bu, çox ciddi bir addımdır. Koordinasiya Şurasında nəqliyyatla bağlı olan bütün qurumlar birləşir. Vahid taarif siyasəti aparılır və aparılmalıdır. Eyni zamanda, Gürcüstan və Türkiyə rəhbərliyi ilə bu məsələlər müzakirə edildi. Azərbaycan təklif etdi ki, Azərbaycan, Gürcüstan və Türkiyə bu dəhliz üçün vahid taarif siyasəti aparsınlar. Bütün müvafiq qurumlar bir siyasət aparsınlar ki, bu dəhliz daha da cəlbedici olsun. Çünki əgər biz sadəcə olaraq burada taarif siyasətində güzəştlər etsək, qonşu ölkələr etməsə bunun səmərəsi olmayacaq. Eyni zamanda, potensial yükgöndərənlərlə də çox ciddi danışıqlar aparılmışdır. Mənim keçən ilin sonunda Çinə dövlət səfərim çərçivəsində bu məsələlər geniş şəkildə müzakirə edilmişdir və artıq Çindən Azərbaycana bu dəhliz ilə birinci konteyner qatarı da göndərilmişdir. Əminəm ki, biz gələcəkdə bu dəhlizin daha da böyük həcmdə işləməsinə nail olacağıq. Çünki ən qısa yol Azərbaycan ərazisindən keçən yoldur. İnfrastruktur var, bunu biz yaratmışıq. Həm dəmir yolu, həm dəniz nəqliyyatı, yeni ticarət limanı tikilir, onun bir hissəsi artıq istifadəyə verilib. Eyni zamanda, ictimaiyyət yaxşı bilir ki, Türkiyə-Rusiya münasibətlərinin gərginləşməsi nəticəsində Türkiyənin böyük tır maşınlarının Orta Asiyaya, Qazaxıstana çıxışı çətinləşdi. Azərbaycan dərhal öz imkanlarını ortaya qoydu, güzəştlər edildi və bu gün bu istiqamətdə də dəhliz işləyir. Biz buna daha da hazır olmalıyıq və Xəzər sahilinin şərqində yerləşən infrastruktur da əlbəttə ki, buna daha hazır olmalıdır. Ancaq bu, bizim üçün yeni imkanlar yaradır. Çünki bu gün biz tranzit potensialımızdan istənilən səviyyədə istifadə etmirik. Bu da nəyə görədir? Ona görə ki, nəqliyyat qurumlarının, - Xəzər gəmiçiliyi, dəmir yolu, liman, - hərəsi öz korporativ maraqlarını güdür, ortada isə Azərbaycan maraqları zərər görür. Buna yol vermək olmaz. Burada da tam şəffaflıq olmalıdır. Gəlirlər dövlətə gəlməlidir və biz bu gəlirlər hesabına daha çox investisiya qoyacağıq, daha çox infrastruktur yaradacağıq. Yəni, bir daha demək istəyirəm ki, son vaxtlar sürətli inkişafımız bəzi hallarda bu məsələlərə diqqətimizi azaltmışdır. Çünki biz neftdən gələn gəlirləri çalışırdıq ki, tezliklə lazım olan sahələrə yönəldək.

Dövlət bütün yükü öz üzərinə götürmüşdür. Ona görə, bəzi dövlət qurumları, şirkətlər passiv fəaliyyət aparırdılar, təşəbbüs göstərmirdilər. Hər ilin sonunda daha çox sifariş edirdilər ki, mənə filan qədər vəsait ayırın, mən burada yol tikəcəyəm, bunu tikəcəyəm, onu tikəcəyəm. Birincisi, tikinti ilə bağlı. Burada da yeni qaydalar tətbiq edilməlidir. Açıq tenderlər elan olunmalıdır. Tenderlərdə qalib gələn şirkətlər bu və ya digər layihəni icra etməlidir. Çünki bizdə adət olub, dəmir yolu çəkilir, gərək bunu dəmir yolu idarəsi tiksin. Nəyə görə? Orada monopoliya, inhisarçılıq yaranır, qiymətlər şişirdilir. Açıq tender elan olunmalıdır. Mən artıq göstəriş vermişəm. Yerli şirkətlərə üstünlük verilməlidir, xarici şirkətlər iştirak etmək istəyirlərsə onlar da iştirak etsinlər. Kim daha ucuz qiymətə daha keyfiyyətli tikərsə tiksin.

Bizdə su xətlərini «Azərsu» çəkir. Birincisi, o qədər böyük layihələri icra etmək üçün onlarda texniki imkan yoxdur. Burada da müxtəlif şirkətlər cəlb edilməlidir. Belə olan halda biz bunu daha da ucuz qiymətə, daha böyük səmərə ilə şəffaf, açıq şəkildə icra edəcəyik. Həmçinin yolların tikintisi. Bizim bir qurumumuz var ki, yollar tikir. Açıq olmalıdır, bizdə indi kimin imkanı, texnikası, təcrübəsi var, yerli, xarici şirkətlər iştirak etsinlər. Burada şəffaflıq tam təmin olunmalıdır. Xahiş edirəm, hökumət buna çox ciddi nəzarət etsin.

Nəqliyyat dəhlizlərinə gəldikdə, bu il Bakı-Astara dəmir yolunun qalan hissəsi tikilməlidir. Orada qalan hissə 8 kilometrdir. Bu il bu, tikilməlidir. İran ilə artıq danışıqlar aparılıb və bu yolun əhəmiyyəti çox böyükdür. Bu, Azərbaycanı Şimal-Cənub dəhlizinin çox önəmli partnyoruna çevirəcək. Beləliklə, Şərq-Qərb və Şimal-Cənub - bütün yollar Azərbaycandan keçəcək. Bu, bizim siyasi, iqtisadi maraqlarımızı təmin edəcək. Ona görə, bir daha demək istəyirəm, ən azı bu il o qalan 8 kilometr yol tezliklə tikilməlidir və burada bütün müvafiq qurumlarla koordinasiya işləri də aparılmalıdır.

Keçən il şəhər nəqliyyatının tənzimlənməsi üçün lazımi tədbirlər görülüb. Ölkəmizə yeni müasir avtobuslar gətirilib. Yeni marşrutlar açılıb. Yeni idarəetmə qaydaları tətbiq edilir. Şəhər nəqliyyatı vahid bir sistem olmalıdır, inteqrasiya edilmiş sistem. Burada da biz sadəcə olaraq inkişaf etmiş şəhərlərin təcrübəsini tətbiq etməliyik. Metro, avtobus, digər vasitələr vahid sistem şəbəkəsinə qoşulmalıdır. Müvafiq göstərişlər verilmişdir. Yeni qurum yaradılmışdır. Tezliklə bu qurumun işi təşkil edilməlidir ki, şəhər nəqliyyatı Bakıda ən yüksək standartlara cavab versin. İndi bizim texniki vasitələrimiz var, müasir avtobuslar alınıb, yenə də almaq lazımdır. Sistem elə olmalıdır ki, yollar, dayanacaqlar, işıqforlar, metro, avtobus vahid sistem kimi işləməlidir. Bakıdan çəkilən yeni yollar bax bu ümumi siyasətin tərkib hissəsi olmalıdır.

Biz Bakıda son vaxtlar şəhər nəqliyyatının təkmilləşdirilməsi üçün çox böyük işlər görmüşük. Körpülər salınıb, yollar genişləndirilib, yolötürücüləri tikilib. Çox böyük işlər görülmüşdür. Əgər biz bu işləri görməsəydik indi şəhər tıxac içində boğulardı. Ancaq bundan sonra daha da məqsədyönlü və düşünülmüş işlər aparılmalıdır. Proqram şəklində, yəni pərakəndə qaydada yox. Hansı yollar harada açılmalıdır, harada köçürmələr olmalıdır. Bu il bax bu sahəyə çox ciddi diqqət verilməlidir.

Bu il iki yeni «ASAN xidmət» mərkəzi açılmalıdır - Masallıda və Qəbələdə. Beləliklə, «ASAN xidmət» mərkəzlərinin sayı 11-ə çatacaq. Bundan əlavə, səyyar xidmət göstərilir, on avtobus ölkəmizi dolaşır. «ASAN xidmət» Azərbaycan brendidir. Mən çox şadam ki, bəzi başqa ölkələr də bu təcrübədən istifadə edirlər. Düzdür, bəzi hallarda «ASAN xidmət»in təcrübəsinə istinad edilmir. Ancaq eybi yoxdur, bizim üçün əsas məsələ odur ki, Azərbaycan vətəndaşları bu xidmətdən yararlansınlar. İki il ərzində 7 milyondan çox müraciət olmuşdur. «ASAN xidmət»in, əgər belə demək mümkündürsə, xalq tərəfindən bəyənilmə əmsalı 100 faizə yaxındır. Bu, ictimai xidmətlər, korrupsiyaya qarşı mübarizə sahəsində doğrudan da inqilabdır. Eyni zamanda, könüllülər sinfi yaradılıb. Fəal vətənpərvər gənclər könüllülər kimi fəaliyyət göstərirlər. Yəni, bu təşəbbüsün çox böyük müsbət mənası var. Gələcəkdə «ASAN xidmət»də göstərilən xidmətlərin sayı daha da artmalıdır. Bizdə harada hələ ki şəffaflıq təmin edilmir, bax o sahələr də «ASAN xidmət»də öz həllini tapacaq. Ona görə, hökumət bu məsələ ilə bağlı əlavə təkliflər versin ki, biz hansı xidmətləri «ASAN xidmət»ə əlavə edə bilərik.

Bu il Bakıda mötəbər beynəlxalq tədbir - Sivilizasiyalar Alyansının Qlobal Forumu keçiriləcək. Bu, dünya miqyasında çox böyük beynəlxalq tədbirdir. BMT-nin fəal iştirakı, dəstəyi ilə keçirilən tədbirlərdir. Mən çox şadam ki, növbəti Qlobal Forum Azərbaycanda keçiriləcək. Bu, Azərbaycanda həmin istiqamətdə görülən işlərə BMT tərəfindən verilən böyük qiymətdir. Bilirsiniz ki, Bakıda ənənəvi Humanitar forumlar keçirilir. Mədəniyyətlərarası Dialoq forumları bir neçə dəfə keçirilmişdir. Sivilizasiyalar Alyansının Qlobal Forumunun Bakıda keçirilməsi doğrudan da həm bizə verilən böyük qiymətdir, həm də ki, bizim üçün böyük şərəfdir.

Azərbaycan sivilizasiyalararası dialoqun genişlənməsi üçün əlindən gələni edir. Əfsuslar olsun ki, getdikcə bu iş daha da çətinləşir. Mən giriş sözümdə bu məsələyə toxundum, bir daha demək istəmirəm. Biz nə qədər çalışsaq da əfsuslar olsun ki, sivilizasiyalararası dialoqu daha az görürük. Biz daha çox sivilizasiyalararası, dinlərarası anlaşılmazlıq, inamsızlıq, toqquşmalar görürük.

Ancaq biz bu yoldan dönməyəcəyik. Azərbaycan çoxmillətli, çoxkonfessiyalı ölkədir. Bu, bizim böyük sərvətimizdir. Biz bu sərvəti qoruyuruq.

Bu Qlobal Forumun Azərbaycanda keçirilməsini, ümumiyyətlə, bu sahəyə verdiyimiz diqqəti və əldə etdiyimiz nailiyyətləri nəzərə alaraq mən bu ili Azərbaycanda «Multikulturalizm ili» elan edirəm. Azərbaycan multikulturalizmlə bağlı çox böyük işlər görüb. Azərbaycan nümunəsi göstərir ki, multikulturalizm yaşayır. Baxmayaraq bəzi siyasətçilər deyirlər ki, multikulturalizm iflasa uğrayıb. Bəlkə haradasa iflasa uğrayıb. Amma Azərbaycanda yaşayır və bu meyillər, bu ideyalar güclənir, ictimaiyyətdən də daha çox dəstək alır. Biz bu yolla gedəcəyik. Beləliklə, bu il Azərbaycanda «Multikulturalizm ili» elan olunur.

2016-cı ildə biz fəal işləməliyik. Dediyim bütün vəzifələr icra edilməlidir. Vəzifələrin icrası üçün mexanizmlər qısa bir zamanda işlənib mənə təqdim edilməlidir. Müvafiq qərarlar qəbul ediləcək ki, 2016-cı ili də biz uğurla başa vuraq. Sağ olun.



*Biz nağd pul dövriyyəsi sferasını azaltmalıyıq. Nağdsız ödəmələr genişləndirilməlidir. Müxtəlif vasitələr var. Buna nail olmaq üçün, o cümlədən fiskal təşviq mexanizmləri tətbiq edilməlidir ki, şirkətlər maraqlı olsunlar ki, nağdsız əməliyyatlar aparılsın*

# Ötən ilin proqnoz tapşırığına əməl edilib

2015-ci ilin yanvar-dekabr ayları ərzində Vergilər Nazirliyinin xətti ilə dövlət büdcəsinə 7 milyard 118 milyon 196,7 min manat vəsait daxil olmuş, proqnoz tapşırığına 100,1 faiz əməl edilmişdir.

İl ərzində vergi orqanlarında 76.877 vergi ödəyicisi qeydiyyata alınmışdır.

# Vergi hüquqpozmalarına qarşı mübarizə tədbirləri gücləndirilib

2015-ci ildə Vergilər Nazirliyi yanında Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamentində vergi ödəməkdən yayınma və qanunsuz sahibkarlıq fəaliyyəti ilə məşğul olma faktları üzrə 1853 cinayət işi başlanmışdır. Aparılan araşdırmalar nəticəsində dövlət büdcəsinə 69,5 milyon manat vəsaitin ödənilməsi təmin edilmişdir.

Departamentin istintaq idarəsində 815 cinayət işi üzrə ibtidai istintaq tamamlanmış, 57 nəfər barədə təqsirləndirilən şəxs barəsində həbs qətimkan tədbiri seçilmişdir. İstintaqı tamamlanmış cinayət işlərindən 71-i üzrə 83 nəfər şəxs barəsində materiallar ittiham aktı ilə aidiyyəti üzrə baxılması üçün məhkəmələrə göndərilmişdir. 576 cinayət işi üzrə büdcədən yayındırılmış vergilər ibtidai istintaq zamanı tamamilə ödənildiyinə görə, icraatına xitam verilmişdir ki, bu da 2014-cü illə müqayisədə 379 iş çoxdur.

Cinayət işləri üzrə keçirilmiş istintaq-əməliyyat tədbirləri nəticəsində vergi cinayətləri törətdiklərinə görə barələrində axtarış elan olunmuş 44 nəfər şəxs tutularaq departamentin İstintaq idarəsinə təhvil verilmiş, ibtidai istintaqdan yayınan 511 şəxsin məcburi qaydada gətirilməsi, 533 şəxsin tapılaraq istintaqa cəlb olunması, 542 şəxsin yerinin müəyyən olunaraq istintaqa məlumat verilməsi təmin edilmişdir. Vergi orqanlarının üzərinə düşən vəzifələrin icrasına kömək göstərilməsi ilə bağlı müraciətlərə baxılması nəticəsində vergi yoxlamalarından, əmlakının siyahıya alınmasından yayınan və fəaliyyəti barədə bəyannamə təqdim etməyən 461 nəfər vergi ödəyicisi tapılaraq onların müvafiq vergi orqanlarına gəlməsi təmin olunmuşdur.

# İxracla məşğul olan sahibkarlara güzəştlər ediləcək

## İxracın stimullaşdırılmasına dair təkliflər Nazirlər Kabinetinə təqdim olunub

İqtisadiyyat və sənaye nazirinin müavini Sahib Məmmədov bildirib ki, təklif edilən güzəştlər sırasına stimullaşdırma üçün maliyyə şərtləri, logistika, infrastrukturun yaxşılaşdırılması, xarici bazarlara çıxış üçün yardım daxildir. Bununla yanaşı, milli ixracın stimullaşdırılması məqsədilə sahibkarlıq subyektlərinin idxal və ixrac əməliyyatında tələb olunan sənəd və prosedurların sayının azaldılması, ixracdakı hesablamaların daha da sadələşdirilməsi, ixracatçılar üçün münasib şəraitin yaradılması nəzərdə tutulur. Bu məsələ ilə bağlı Dövlət Gömrük Komitəsi ilə birgə hüquqi və fiziki şəxslərin yüklərinin gömrük sənədləşdirilməsi zamanı zəruri sənədlərin sayının azaldılmasına dair təkliflər hazırlanıb. Bundan əlavə, qeyri-neft məhsullarının ixracının stimullaşdırılmasına dair Tədbirlər Planının qəbul edilməsi də gündəlikdədir.

Bildirilib ki, bu ilin əvvəllərindən dəmir yanvar-noyabr ayları ərzində 17,2 milyard dollarlıq xarici dövriyyə olub ki, bunun da 7,4 milyard dolları idxalın, qalanı isə ixracın payına düşür. İxracda qeyri-neft məhsullarının, əsasən də meyvə-tərəvəzin çəkisi artıb və həmin mallar, əsasən, MDB ölkələrinə göndərilib. Ümumi qeyri-neft ixracında Rusiya Federasiyası 22%-lə üstünlük təşkil edir.

İxracqabiliyyətli məhsul istehsal etmək üçün özəl sektorda müasir tələblərə cavab verən və yüksək texnologiyalarla təchiz olunan yeni sənaye və emal müəssisələrinin açılması vacibdir. Bu məqsədlə iş adamlarına istehsal yönümlü müəssisələrin yaradılması üçün güzəştli kreditlərin verilməsi, investisiyaların cəlbinə mane olan bürokratik amillərin aradan qaldırılması, elektron xidmətlərin həcminin genişləndirilməsi ilə əlaqədar tədbirlər görüləcək.

**İslahatların əsas məqsədi milli ixracatçıların xarici bazarlara daha asan və rahat məhsul çıxarmasına imkan yaratmaqdır**

İqtisadiyyat və sənaye nazirinin müavini Sahil Babayev İxracatçılar Klubunun iclasında bildirib ki, daşınma xərclərinin aşağı salınması ilə bağlı şirkətlərin təklifləri nəzərdən keçirilir. Hazırda ixracatçıların qarşılaşdıqları əsas problem sertifikatlaşdırmadır. Ona görə də mənşə və keyfiyyət sertifikatlarının əldə olunmasının asanlaşdırılması üçün qanunvericiliyə bəzi dəyişikliklərin edilməsinə ehtiyac var və bu məsələ yaxın vaxtlarda öz həllini tapacaq. İslahatların əsas məqsədi milli ixracatçıların xarici bazarlara daha asan və rahat məhsul çıxarmasına imkan yaratmaqdır. Qeyd edilib ki, ötən ilin yolları, dəniz nəqliyyatı, dəniz limanları və dəniz terminalları vasitəsilə tranzit yüklərin daşınmasında «bir pəncərə» prinsipinin tətbiqi həyata keçiriləcək. Bu məqsədlə həmin sahələrin fəaliyyətini tənzimləyən Koordinasiya Şurasının ləğvi məsələsi nəzərdən keçirilmişdir. Bütövlükdə, bu sahədə yaradılan əlverişli şərait ixracla məşğul olan yerli və xarici şirkətlərin tranzit daşınmalarında fəallığının artmasına, ixracla məşğul olan sahibkarlar üçün rəqabət mühitinin daha da yaxşılaşmasına xidmət edəcək.

**ELBRUS**

## RƏQƏMLƏRİN DİLİ İLƏ

**2015-ci ildə...**

- Sahibkarlığa Kömək Milli Fondu tərəfindən **5243** sahibkara **248,5 mln.** manat güzəştli kredit verilib. Bu kreditlərdən istifadə etməklə investisiya layihələrinin reallaşdırılması **12.600**-ə yaxın yeni iş yerinin açılmasına imkan yaradır.
- Ölkədə əmək pensiyası alan şəxslərin sayı **1 milyon 295 min 900** nəfərə çatıb.
- Respublikamızda yaşa görə əmək pensiyasının orta aylıq məbləği **196,08** manat təşkil edir.
- Azərbaycanın qiymətli kağızlar bazarında **8 milyard 455,5 milyon** manatlıq əməliyyat aparılıb.
- Daşınmaz əmlakın istismarı ilə bağlı mülki məsuliyyətin icbari sığortası üzrə **4580** sığorta müqaviləsi bağlanıb.
- «Avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası» üzrə iştirakçı sığorta şirkətləri tərəfindən **18.673** sığorta tələbi üzrə **22,7 milyon** manata yaxın məbləğdə sığorta ödənişi həyata keçirilib.
- Ölkənin enerji sistemində **22,5 milyard** kilovat-saatdan artıq elektrik enerjisi istehsal olunub.

## BİR CÜMLƏ - BİR XƏBƏR

Azərbaycanda lisenziyalaşdırma sistemi ÜTT-nin tələblərinə uyğunlaşdırılacaq.

Ölkəmizdə banklar üçün ehtiyatların yaradılması normaları sadələşdirilib.

Sankt-Peterburq şirkətləri qeyri-neft sənayesində əməkdaşlıqla bağlı Azərbaycan hökumətinə təkliflər göndəriblər.

«Bloomberg» agentliyi 2016-cı ildə Azərbaycanda ümumi daxili məhsul istehsalının 2,4% təşkil edəcəyini açıqlayıb.

Yanvarın 20-dən 23-dək İsveçrənin Davos şəhərində Dünya İqtisadi Forumu keçiriləcək.

2015-ci ildə Azərbaycan iqtisadiyyatına 20 milyard dollara yaxın sərmayə yatırılıb.

AZAL fevralın 1-dən aviabiletlərin qiymətlərinin formalaşdırılmasında yeni siyasət tətbiq edəcək.

Mərkəzi Bank ölkə bankları üçün marjanı 2%-dən 4%-ə qaldırıb.

Dövlət Neft Fondu yenidən daxili banklararası bazarda valyuta satışına başlayacaq.

# Stimullaşdırıcı tədbirlər lizinqin inkişafına şərait yaradacaq

Azərbaycan Lizinq Şirkətləri Assosiasiyasının rəhbəri Elçin Əhmədov bildirib ki, bu addımın atılması lizinq xidmətlərinin yaxşılaşmasına, xərclərin və qiymətlərin aşağı düşməsinə, rəqabət qabiliyyətinin artmasına təkan verəcək. İndiyədək lizinq şirkətləri ƏDV ödədikləri üçün idxal edilən lizinq obyektinin qiyməti 18 faiz bahalaşırdı, buna görə də lizinq əməliyyatları bank kreditləşməsinə rəqabət təşkil edə bilmirdi. Dəyişikliklər sayəsində ölkədə idxal edilən lizinq obyektinin qiyməti təqribən 18 faiz azalacaq ki, bu da banklarla rəqabət aparmağa imkan verəcək, bazarda artım dinamikasına müsbət təsir göstərəcək.

**Vergi Məcəlləsinə edilən dəyişikliklərdən biri də lizinq predmeti olan istehsal yönümlü avadanlıqların ölkəyə idxalına ƏDV-nin ləğv edilməsidir**

E.Əhmədov lizinqin sahibkarlıq sektoru ilə sıx təmasda olduğunu və son dövrlər bu sahədə həyata keçirilən islahatların, o cümlədən yoxlamaların 2 il müddətinə dayandırılmasını biznesin inkişafı baxımından müsbət addım kimi qiymətləndirib. Qeyd olunub ki, hazırda ölkədə 20-dən artıq lizinq şirkəti fəaliyyət göstərir. Onlar lizinqin müxtəlif sahələri üzrə xidmətlər təklif etsələr də, əsas bazar kənd təsərrüfatı sektorunu sayılır. Bu sahədə isə özəl şirkətlərin fəaliyyəti çox zəifdir. Dövlətə məxsus «Aqrolizinq» müəyyən imtiyazlara malikdir: büdcədən güzəştli maliyyələşmə əldə edir, cüzi faizlərlə və ya faizsiz texniki avadanlıqları kənd təsərrüfatında işləyən sahibkarlara lizinqə verir. Bu isə özəl lizinq şirkətlərinin rəqabət aparmaq imkanlarına mane olur. Vergi güzəştləri bu sahədə əsl rəqabət mühitini təmin edəcək, özəl lizinq şirkətlərinin də kənd təsərrüfatı mülkiyyətçilərinə xidmətlər göstərməsini stimullaşdıracaq.

Hazırda Azərbaycanda lizinq daha çox tikinti və kənd təsərrüfatı sektorunu əhatə edir. Kənd təsərrüfatı məhsullarının saxlanması məqsədilə soyuducu və saxlanma anbarlarının, o cümlədən kənd təsərrüfatı məhsullarının yetişdirilməsi üçün istixanaların, telekommunikasiya sahəsində bahalı avadanlıqların uzun müddətə maliyyələşməsi, nəqliyyat, infrastruktur layihələri, emal və yüngül sənaye sahəsi də lizinq üçün sərfəli hesab edilir. Ekspertlərin fikrincə, tətbiq olunan güzəştlər həmin sahələrdə lizinqə tələbatı xeyli artıra bilər.

Kənd Təsərrüfatı Nazirliyinin əməkdaşı Mikayıl Nuriyev hesab edir ki, lizinqin ƏDV-dən azad olunması, dövlət şirkətləri ilə yanaşı, özəl lizinq təşkilatlarının da aqrar sahəyə cəlb edilməsinə, kiçik və orta sahibkarların maddi-texniki vasitələrlə təmin olunmasına müsbət təsir göstərəcək. Qeyd olunmalıdır ki, bundan əvvəl də dövlət başçısının sərəncamına əsasən, lizinqə verilən və ya lizinq yolu ilə satılan bir sıra aqrar təyinatlı vasitələrə və avadanlığa dəyərinin 40 faizi həcmində güzəşt tətbiq edilib. Bu addım aqrar sahənin müasir texnoloji avadanlıqla təchiz edilməsinə və infrastrukturun yaxşılaşmasına əlverişli şərait yaradıb. Bundan əlavə, Nazirlər Kabineti kənd təsərrüfatı texnikasının və texnoloji avadanlıqların lizinq yolu ilə satılması qaydalarına dəyişiklik edib: kənd təsərrüfatı texnikasının lizinq şərtləri sadələşdirilib, lizinq üçün ilkin ödəniş 20%-dən 10%-ə endirilib. Texnikanın dəyərinin 10 faizdən az olmayan hissəsi əvvəlcədən, qalan hissəsi isə 10 il müddətində ödənilir. Lizinqin ƏDV-dən azad olunması isə texnikanın, avadanlıqların və lizinq xidmətlərinin ucuzlaşmasına səbəb olacaq ki, bu da sahibkarların xərclərinin azalmasına imkan verəcək.

Lizinq yolu ilə kənd təsərrüfatı mülkiyyətçilərinə verilən texnikaların sayı da artırılacaq. Fermerlər bölgələrdə fəaliyyət göstərən «Aqrolizinq» ASC-nin filialları vasitəsilə kənd təsərrüfatı texnikaları əldə edə biləcəklər. Bu, fermerin kənd təsərrüfatı məhsullarının əkini, becərilməsi və istehsalı kimi sahələrdə üzləşdikləri problemlərin aradan qalxmasına səbəb olacaq.

2016-cı ildə lizinq sahəsində şəffaflığın artırılması və fermerlərin lizinqə daha asan çıxışının təmin olunması məqsədilə bu sahədə elektron xidmətlərin tətbiqi də genişləndiriləcək. Bu məqsədlə aqrar sahədə lizinq xidmətləri göstərən şirkətlər «Elektron hökumət» portalına inteqrasiya olunmaqdadır. Sahibkarlar kənd təsərrüfatı texnikasını lizinqlə əldə etmək üçün müraciətlərini və zəruri sənədləri onlayn qaydada təqdim edəcək ki, bu da onların gediş-gəlişinin asanlaşdırılmasına, vaxt itkisinin qarşısının alınmasına və xidmətlərin daha keyfiyyətlə göstərilməsinə şərait yaradacaq.

**E.CƏFƏRLİ**

# Ötən ilin yekunları nəzərdən keçirilib

Vergilər Nazirliyinin Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin (BHİK) ötənilki fəaliyyəti ilə əlaqədar iclas keçirilmişdir.

Tədbirdə çıxış edən komitə sədri Məmməd Məmmədov ötən ilin əsas yekunlarını iştirakçıların nəzərinə çatdırmışdır. Qeyd edilmişdir ki, keçən il vergi əməkdaşlarının tibbi sığortası təmin edilmiş, istər Vergilər Nazirliyində, istərsə də onun struktur bölmələrində BHİK-in və onun ilk həmkarlar təşkilatlarının fəaliyyətləri üçün Kollektiv Sazişdə nəzərdə tutulan lazımi işgüzar şərait yaradılmışdır: «Vergi əməkdaşlarının əmək şəraitinin yüksək səviyyədə təşkili Vergilər Nazirliyi rəhbərliyinin, o cümlədən BHİK-in daim diqqət mərkəzində olan məsələlərdəndir. Kollektiv Sazişin öhdəliklərinin yerinə yetirilməsi, yeni işə qəbul olunmuş işçilərə əmək müqavilələrinin bağlanması istiqamətində yoxlama işləri təşkil edilmişdir.

Qeyd olunmuşdur ki, ötən il ərzində müalicə və istirahətə ehtiyacı olan vergi əməkdaşları 41 yollayışla (12-si sanatoriyalara, 29-u istirahət evlərinə) qismən dəyəri ödənilməklə təmin edilmişdir. Komitəyə vergi əməkdaşlarından və digər vətəndaşlardan 90-a yaxın ərizə daxil olmuş və onların hamısı müsbət cavablandırılmışdır.

**AYTƏN**

# Yeni mobil ödəniş sistemi yaradılır

«AzerPay» şirkətindən bildirilib ki, sistem 2016-cı il yanvarın ortalarında sınaqdan keçirilməyə başlayacaq, fevralda isə istismara veriləcək.

Yeni ödəniş sistemi təmassız ödənişlərin, pulköçürmələrin həyata keçirilməsi imkanı, kredit alınması üçün müraciət, POS-terminallardan əməliyyatlar aparılması, hesabın doldurulması və digər üstünlüklərə malikdir.

Sistemdə ümumilikdə 160-dan çox ödəniş xidməti fəaliyyət göstərəcək. İstifadəçilərə, həmçinin, «Mobile POS» ödənişlərinin qəbulu üçün vergi ödəyicisinin eyniləşdirmə nömrəsinin qeydiyyata alınması xidməti təklif ediləcək. Bu xidmət fərdi sahibkarlar üçün nəzərdə tutulub və kommersiya fəaliyyəti ilə bağlı ödənişləri qəbul etməyə, vergi ödənişini avtomatik həyata keçirməyə imkan verəcək.

## Hüquq məsləhətxanamız



Samirə Musayeva
Azərbaycan Respublikası
Vergilər Nazirliyinin Hüquq Baş İdarəsinin rəisi
vergi ödəyicilərinin suallarına cavab verir

# İctimai iaşə fəaliyyəti üzrə vergi

***Göyçay rayonunda kafe işlədirəm. Vergi Məcəlləsinə edilən dəyişikliklərdən sonra sadələşdirilmiş vergini hansı dərəcə ilə ödəməliyəm?***

«Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişikliklər edilməsi haqqında» 20 oktyabr 2015-ci il tarixli qanuna əsasən, 1 yanvar 2016-cı ildən Vergi Məcəlləsinin 218.1.1-ci maddəsinə görə ƏDV məqsədləri üçün qeydiyyata alınmamış və ardıcıl 12 aylıq dövrün istənilən ayında (aylarında) vergi tutulan əməliyyatların həcmi 200.000 manat və ondan az olan şəxslər sadələşdirilmiş vergi ödəyicisi olmaq hüququna malikdir və həmin şəxslər sadələşdirilmiş vergini əvvəlki vergi dərəcəsi ilə, yəni Bakı şəhəri istisna olmaqla digər şəhər və rayonlarda, Naxçıvan Muxtar Respublikasında 2 faiz dərəcə ilə ödəyirlər.

Vergi Məcəlləsinin 218.1.2-ci maddəsində göstərilən ictimai iaşə fəaliyyəti ilə məşğul olan şəxslər tərəfindən sadələşdirilmiş vergi Məcəllənin 219.1-ci maddəsində müəyyən edilmiş vergitutma obyektində (qiymətləri müvafiq icra hakimiyyəti orqanı tərəfindən tənzimlənən malların satış dövriyyəsi istisna edilməklə) həmin fəaliyyət üzrə 8 faiz dərəcə ilə hesablanır. Qeyd etmək lazımdır ki, təsərrüfat subyektinin yerləşdiyi ərazi zonasından asılı olmayaraq bu faiz dərəcəsi eyni tətbiq edilir.

Vergi Məcəlləsinin 218.1.2-ci maddəsi ilə vergi tutulan əməliyyatlarının həcmi ardıcıl 12 aylıq dövrün istənilən ayında (aylarında) 200.000 manatdan artıq olan ticarət və (və ya) ictimai iaşə fəaliyyəti ilə məşğul olan şəxslərə sadələşdirilmiş verginin ödəyicisi olmaq hüququ verilmişdir.

Hesabat dövrü ərzində vergi ödəyicisi tərəfindən (Məcəllənin 218.4-cü maddəsində nəzərdə tutulmuş vergi ödəyiciləri istisna olmaqla) təqdim edilmiş mallara (işlərə, xidmətlərə) və əmlaka görə əldə edilmiş ümumi hasilatın, habelə satışdankənar gəlirlərin (ödəmə mənbəyində vergi tutulmuş gəlirlər istisna edilməklə) həcmi sadələşdirilmiş vergi üzrə vergitutma obyektidir (Vergi Məcəlləsi, maddə 219.1).

Onu da qeyd edək ki, Vergi Məcəlləsinə edilən dəyişikliklərlə ictimai iaşə fəaliyyətinə də anlayış verilmişdir. Başqa sözlə desək, Vergi Məcəlləsinin 13.2.56-cı maddəsində qeyd edilmişdir ki, ictimai iaşə fəaliyyəti - fəaliyyət göstərdiyi xidmət obyektinin ərazisində və ya səyyar qaydada alıcıya istehlak məqsədilə hazırlanmış (bişirilmiş) qida (yeyinti) məhsullarının təqdim edilməsi ilə əlaqədar sahibkarlıq fəaliyyətidir.

Suallarınızı redaksiyamızın ünvanına: AZ 1073, Bakı ş., Landau küç., 16 və ya **s.musayeva@taxes.gov.az** elektron poçt ünvanına göndərə bilərsiniz

# Kiçik və orta biznesin inkişafına dəstək

«Gələcək inkişafımızın uğurlu və dayanıqlı davamı üçün sahibkarlığın inkişafı prioritet olaraq qalır. Biz gələcəkdə bu sahədə daha da fəal işlər aparmalıyıq ki, sahibkarlığı maksimum dərəcədə inkişaf etdirək. Sahibkarlara həm siyasi dəstək, həm metodiki tövsiyələr, eyni zamanda, əlbəttə, maliyyə resursları verilir ki, onlar iş qursunlar».

**İlham ƏLİYEV,**
***Azərbaycan Respublikasının Prezidenti***

Ölkə başçısının tapşırıqlarına uyğun olaraq hökumət sahibkarlığın inkişafı üçün sistemli tədbirləri davam etdirir, qabaqcıl beynəlxalq təcrübə nəzərə alınmaqla daha mütərəqqi normativ-hüquqi baza formalaşdırır. Sahibkarlıq subyektlərinin «bir pəncərə» prinsipi üzrə elektron qeydiyyatı, daşınmaz əmlaka hüquqların qeydiyyatı sahəsində keçirilən islahatların davamı olaraq tikintiyə icazələrin verilməsi, korporativ idarəetmənin təkmilləşdirilməsi, investorların maraqlarının qorunması və müflisləşmə üzrə qanunvericiliyə zəruri dəyişikliklər edilməsi və s. bu sahədə görülən işlərin intensivliyini ortaya qoyur.

Sahibkarların hüquqlarının qorunması və sahibkarlığın inkişafına dəstək hökumətin həyata keçirdiyi siyasətin başlıca istiqamətlərindəndir. Bu sahədə mövcud olan bir sıra neqativ halların aradan qaldırılması üçün ciddi addımlar atılır, biznesə başlama prosedurları sədələşdirilir, qanunvericiliyin təkmilləşdirilməsi və maarifləndirmə işləri həyata keçirilir. Sahibkarlığın inkişafı məqsədilə xüsusi icazə tələb edən fəaliyyət növlərinin sayı azaldılıb, lisenziya müddəti uzadılıb, bu sahədə şəffaflığı təmin edən qaydalar tətbiq edilib. Lisenziyaların «ASAN xidmət» vasitəsilə verilməsi ilə bağlı ölkə başçısının müvafiq qərarı da məhz bu məqsədə xidmət edir.

***İş adamlarının hüquqları qorunur***

Ölkə başçısının vergi orqanları qarşısında qoyduğu vəzifələrin icrasını təmin etmək məqsədilə vergitutma bazasının genişləndirilməsi, mövcud vergi potensialından daha səmərəli istifadə üçün ciddi vergi-büdcə təhlilləri aparılmışdır. Vergilər Nazirliyi tərəfindən müvafiq dövlət qurumları ilə razıllaşdırılmaqla Vergi Məcəlləsinə və bir sıra qanunvericilik aktlarına dəyişikliklər edilməsi barədə konkret təkliflər verilmiş, bu dəyişikliklər 20 oktyabr 2015-ci il tarixdə Milli Məclis tərəfindən qəbul olunmuş, 7 dekabr 2015-ci il tarixdə isə Prezidentin fərmanı ilə təsdiq edilmişdir. Vergi Məcəlləsinə edilmiş dəyişikliklərin böyük əksəriyyəti vergi ödəyicilərinin hüquqlarının genişləndirilməsinə, vergi yükünün azaldılmasına, vergi inzibatçılığının təkmilləşdirilməsinə, vergidən yayınmaya qarşı mübarizənin gücləndirilməsi yolu ilə büdcə daxilolmalarının artırılmasına xidmət edir. Vergi orqanları qarşısında dövlət büdcəsinin icrası ilə yanaşı, sahibkarlığın inkişafı, xüsusilə kiçik və orta biznesin fəaliyyətinin genişləndirilməsinin təşviqi də əsas vəzifə kimi durur. Bu vəzifələrin icrası məqsədilə Vergilər Nazirliyi öz səlahiyyətləri çərçivəsində bir sıra ciddi tədbirlər həyata keçirir.

***Sahibkarlığa qayğı məqsədilə...***

Vergi Məcəlləsinə edilmiş son dəyişikliklərə əsasən, əlavə dəyər vergisinin məqsədləri üçün ərizə vermək öhdəliyi yaradan vergi tutulan əməliyyatların həcmi 120 min manatdan 200 min manatadək artırıldığından, 2016-cı il yanvar ayının 1-dən dövriyyəsi 200 min manatadək olan şəxslər də fəaliyyətlərini sadələşdirilmiş vergitutma rejimində davam etdirmək imkanı əldə edəcəklər. Bu isə həmin vergi ödəyicilərinin vergi yükünün əhəmiyyətli dərəcədə azaldılması ilə yanaşı, həm də vergi nəzarəti tədbirlərindən azad olunan vergi ödəyicilərinin əhatə dairəsini xeyli artıracaqdır.

Son dövrlər vergi orqanları vergilərin hesablanmasını və ödənilməsini özündə əks etdirən və vergi ödəyicisinin fəaliyyəti haqqında vergi orqanında olan sənədlər, mənbəyi məlum olan məlumatlar əsasında vergi orqanlarına getmədən və onların fəaliyyətinə heç bir müdaxilə etmədən, distant təhlillərə əsaslanan kameral vergi yoxlamalarına daha çox üstünlük verirlər. Bu isə sahibkarların biznes fəaliyyətinə maneçilik törətmədən vergilərin hesablanmasında və dövlət büdcəsinə ödənilməsində vergi ödəyiciləri tərəfindən yol verilən nöqsanların ciddi hüquqi nəticələrə səbəb olmadan aradan qaldırılmasına, son nəticədə büdcə daxilolmalarının artmasına müsbət təsirini göstərir. Kameral vergi yoxlamaları aparılarkən vergi ödəyicilərinə bildiriş göndərilərək yerli vergi orqanlarına dəvət olunur və vergi ödəyiciləri tərəfindən təqdim edilən təsdiqedici sənədlər onların özünün və ya səlahiyyətli nümayəndəsinin iştirakı ilə diqqətlə araşdırılır.

Vergi Məcəlləsinin 3.10-cu maddəsinin tələblərinə əsasən, vergi sistemi sahibkarlıq və investisiya fəaliyyətini təşviq etməli olduğundan, habelə Məcəllənin 3.11-ci maddəsinə əsasən, vergilər haqqında qanunvericiliyin bütün ziddiyyətləri və aydın olmayan məqamları vergi ödəyicisinin xeyrinə şərh edildiyindən, bir sıra hallarda aparılan araşdırmalar hesablanmış vergilərin azaldılması və tətbiq olunmuş maliyyə sanksiyalarının ləğvi ilə nəticələnir.

*Azərbaycanda daha əlverişli biznes mühitinin formalaşması və iş adamlarının, xüsusilə də kiçik və orta bizneslə məşğul olan sahibkarların vergi borclarının ləğv edilməsində onlara kömək göstərilməsi məqsədilə ötən ilin son ayı ərzində vergi orqanlarında aparılmış hərtərəfli araşdırmalar nəticəsində bir sıra vergi ödəyiciləri yaranmış vergi borclarını büdcəyə ödəmiş, mövcud qanunvericiliyin tələblərinə uyğun olaraq bəzi vergi ödəyicilərinin borcları azaldılmış, 24 minə yaxın vergi ödəyicisinin əsasən kiçik məbləğlərdə olan borcları tamamilə*

***Nəzarətdən daha çox əməkdaşlığa üstünlük verilir***

Sahibkarların maraqlarının müdafiəsini gücləndirmək və onlara dövlət dəstəyini artırmaq, əlverişli biznes mühitinin formalaşdırılması məqsədilə atılmış daha bir mühüm addım ölkə başçısının təşəbbüsü ilə «Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında» Qanunun qəbul edilməsi olmuşdur. Qanunda vergi yoxlamalarının dayandırılması və ya ləğv olunması nəzərdə tutulmasa da Vergilər Nazirliyi yoxlamaların azaldılması ilə bağlı qərar qəbul etmişdir. Vergilər nazirinin əmri ilə illik dövriyyəsi 120 min manatdan aşağı olan sahibkarlıq subyektlərində səyyar vergi yoxlamaları və vergi nəzarəti tədbirlərinin (əmək müqavilələrinin bağlanmasına və aksizli məhsulların satışı zamanı aksizlərin tətbiqinə nəzarət, habelə dövriyyənin müəyyənləşdirilməsi üçün xronometraj metodu ilə müşahidələrin aparılması istisna olmaqla) keçirilməsi müvəqqəti olaraq dayandırılmışdır.

Vergi yoxlamalarının məhdudlaşdırılmasında əsas məqsəd vergi ödəyiciləri ilə münasibətləri partnyorluq səviyyəsində qurmaqdır. Yəni vergi orqanları kiçik və orta bizneslə məşğul olan vergi ödəyiciləri ilə nəzarətdən çox əməkdaşlığa üstünlük verəcəklər. Vergi ödəyiciləri ilə xidmət sahəsində işlər daha da genişlənəcək, hər bir vergi ödəyicisinə ünvanlı xidmət göstəriləcək və vergi qanunvericiliyinin tələbləri mütəmadi qaydada onlara izah olunacaq. Xüsusən regionlarda olan vergi ödəyicilərinə texniki və hüquqi xidmətlər göstəriləcək.

**Rəşad SADIQOV**

# Banklardakı bütün əmanətlər qorunacaq

Azərbaycan Əmanətlərin Sığortalanması Fondunun yeni qərarına əsasən, ölkədəki banklarda yerləşdirilmiş bütün əmanətlərin sığortalanması nəzərdə tutulur. Fondun icraçı direktoru Azad Cavadov bildirib ki, bununla bağlı Mərkəzi Banka (MB) müraciət olunub. Bank sistemində belə bir beynəlxalq təcrübə olduğundan bunun Azərbaycanda da tətbiqi məqsədəuyğun hesab edilir. Fondun təklifi MB tərəfindən də müsbət qarşılanıb və yaxın günlərdə hökumətin bununla bağlı qərar verəcəyi gözlənilir.

Sığorta Fondu fəaliyyətə başlayandan indiyə kimi banklara yerləşdirilən depozitlərə müəyyən olunmuş faizlər nisbətində sığorta tətbiq olunub. Fond sonuncu dəfə ötən ilin əvvəllərində əhalinin banklarda qorunan əmanətləri üzrə faiz dərəcəsini 9%-dən 12%-ə qaldırıb. İllik 12 faizdən yuxarı faiz dərəcəsi ilə yerləşdirilmiş əmanətlər isə sığortalanmır. Yeni qərarın qəbulundan sonra həmin faizdən yüksək olan əmanətlərin də qorunan əmanətlər qrupuna aid edilməsi nəzərdə tutulur. Fondun rəhbəri bildirib ki, 2015-ci ilin 3-cü rübünün yekunlarına əsasən, əhalinin banklardakı 7,3 milyard manat əmanətinin 2 milyardı qorunmayan əmanətlər idi. Qorunma sisteminin tam olması üçün bu məsələyə də dəyişiklik ediləcək. Əmanətlərin sığortalanması zamanı faiz və məbləğ məhdudiyyəti aradan qaldırılacaq. Yəni hazırda bir bankda 30 min manatadək əmanətlər sığortalanırsa, dəyişikliklərdən sonra bu rəqəmin sərbəst seçilməsi müəyyən olunacaq.

Sığortalanan əmanətlər üzrə məhdudiyyətlərin götürülməsinə baxmayaraq, fond bir sıra əmanət növlərinin qorunmasına yenə zəmanət verməyəcək. Bankın Azərbaycandan kənarda açılmış bölmələri tərəfindən cəlb olunmuş əmanətlər, cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsi ilə bağlı şübhəli əməliyyatlar nəticəsində qanunvericiliyə müvafiq qaydada müəyyən edilmiş vəsaitlərin, üzərinə həbs qoyulmuş vəsaitlərin sığortalanması nəzərdə tutulmur.

İqtisadçı Ortay Məmmədov hesab edir ki, banklardakı vəsaitlərin sığorta əmsalına tətbiq edilən limitin götürülməsi əhalini banklara əmanət yerləşdirməyə həvəsləndirməyin təsirli vasitələrindəndir. Hazırda ölkədəki kommersiya bankları tərəfindən vətəndaşların əmanətlərinə verilən illik gəlirlər təxminən 9-9,5 faizdir. Yeni qərardan sonra kommersiya bankları öz müştərilərini itirməmək, yaxud onları həvəsləndirmək üçün əmanətlərin faizlərini artırmağı təklif edirlər. Manatın məzənnəsinin ucuzlaşmasından sonra bəzi vətəndaşlar əmanətlərini banklardan çıxarmağa və ya xarici valyutaya dəyişməyə üstünlük verirlər. Mütəxəssisin fikrincə, əmanət faizlərinə sığorta limitinin götürülməsi kommersiya banklarının kredit faizlərinin artmasına da təsir edə bilər. Çünki 13-15 faizlə əmanət cəlb edən bank ən azı bu göstəricidən 7-8 faiz yuxarı kredit təklif edəcək. Bu, qorunan əmanətlər üzrə faiz dərəcəsinin 9%-dən 12%-ə qaldırılmasından sonra da müşahidə edildi, həmin qərardan sonra istehlak kreditlərinin də faizlərinin artımı baş verdi. Hazırda Azərbaycanda istehlak kreditləri (ümumi kredit portfelinin 25%-i) üzrə faiz dərəcələri 20%-dən çoxdur. Amma əhalinin banklardakı vəsaitlərinin sığorta əmsalının yüksəldilməsi kommersiya banklarının kreditləri qaldırması üçün heç bir əsas vermir. Hazırda banklar üzrə uçot dərəcəsi 3,5%-dir və bu, onların aşağı faizlə kredit verməsinə imkan yaradır. Bu gün bankların kredit resurslarının böyük hissəsi - təxminən yarısı depozitlər hesabına formalaşır. Ona görə də banklar əsas vəsait mənbəyi olan depozitləri saxlamaq üçün səmərəli kredit siyasəti həyata keçirməlidirlər.

**ELBRUS**

# İnvestisiya qoyuluşlarının əmlak vergisinə təsiri

Bəzən müəssisələrin balansında «başa çatdırılmamış tikinti obyektləri» adı altında əmlak uçota alınır. Bu əmlaka «əsas vəsaitlərə investisiya qoyuluşu» da deyilə bilər və onun dəyəri vergi ödəyicisi tərəfindən vergi uçotunda çox hallarda «əsas vəsait» kimi qəbul edilmir. Praktikada elə hallar olur ki, tikintisi tam başa çatdırılmayan və ya başa çatdırıldıqdan sonra tikintidən istifadəyə icazə verən və qeydiyyata alan müvafiq icra hakimiyyəti orqanı tərəfindən sənədləri hazır olmayan binalardan istifadə olunur. Tikintinin müvafiq istismar sənədlərinin olmamasını və ya tikintinin tam başa çatdırılmamasını əsas gətirərək vergi uçotunda «əsas vəsaitlər» hesabına uçota alınmadan istismar olunan uzunmüddətli maddi aktivlərin əmlak vergisinə cəlb edilməsi sual doğura bilər.

Sərbəst auditor Qulu Soltanov bu məsələ ilə bağlı bildirdi ki, Vergi Məcəlləsinin 197.1.3-cü maddəsinə görə, əmlak vergisi üçün vergitutma obyekti müəssisələrin balansında olan əsas vəsaitlərin orta illik dəyəridir: «Məcəlləyə görə, əsas vəsait həmçinin amortizasiya edilməli olan maddi aktivdir. Məcəllənin 114.2-ci maddəsində amortizasiya olunmayan aktivlər barədə qeyd var. Bu maddədə göstərilməyən və 114.3-cü maddəyə uyğun gələn bütün digər maddi aktivlər amortizasiya olunanlardır. Məcəllənin müddəaları üzrə əsas vəsait anlayışının təhlilindən belə qənaətə gəlmək olar ki, vergitutma məqsədləri üçün binaların əsas vəsait kimi qəbul edilməsi onların istismarda olub-olmaması ilə əlaqələndirilə bilməz. Baxmayaraq ki, Məcəllənin 114.2.10-cu maddəsinə görə istismara verilməmiş anbarda olan əsas vəsaitlər amortizasiya olunmayandır, bina anbarlaşdırıla bilmədiyinə və yalnız daşınar əşyaların anbarlaşdırılması məntiqinə əsaslansaq, deməli, bu maddənin tələbi binalara aid edilə bilməz.

Mühasiblər bunu «Kiçik sahibkarlıq subyektlərində sadələşdirilmiş uçotun aparılması Qaydaları»nda göstərilən «əsas vəsait» anlayışı ilə də əlaqələndirə bilərlər. Qaydalarda «əsas vəsait» kiçik sahibkarlıq subyektinin mülkiyyətindəki istismarda, ehtiyatda olan, müvəqqəti dayandırılan, yaxud icarəyə verilən aktiv kimi göstərilir. Burada söhbət sahibkarlıq subyektinin mülkiyyətində olanlardan gedirsə, mülkiyyəti tanıyan sənəd kimi müvafiq icra hakimiyyəti orqanı tərəfindən verilən qeydiyyat sənədinin olmasının vacibliyi amili ortaya çıxır. Bu sənəd olmadıqda hər hansı daşınmaz əmlakın (tikili, bina) əsas vəsait kimi təsnifləşdirilməsi mümkün olmur və ona görə də əmlak vergisindən yayındırılmasına dolayısı ilə şərait yaranır».

Vergi Məcəlləsində bu məsələ üzrə «mülkiyyət» anlayışı nəzərdə tutulmayıb. Hətta Məcəllənin 197.1.3-cü maddəsində müəssisələrin məhz balansında olan əsas vəsaitlər vurğulanır. Bura müəssisənin mülkiyyətində olmayan lizinqə götürülən aktivləri də əlavə etmək olar.

Q.Soltanov qeyd etdi ki, Vergi Məcəlləsinin 114.3.8-ci maddəsində cari ildə faktiki dəyəri ödənilmiş istehsal təyinatlı kapital qoyuluşları, habelə lizinq obyekti olan əmlak üçün Məcəllənin 114.3.1, 114.3.2, 114.3.3 və 114.3.7-ci maddələrində nəzərdə tutulmuş illik amortizasiya normalarının 2 dəfəyədək artırıldığı göstərilir: «Deməli, bu tip kapital qoyuluşu (investisiya qoyuluşu) amortizasiya olunan aktiv olduğuna görə əsas vəsait hesab edilməlidir və həmin kapital qoyuluşunun qalıq dəyəri əmlak vergisinin hesablanmasında nəzərə alınmalıdır. Lakin «Kiçik sahibkarlıq subyektlərində sadələşdirilmiş uçotun aparılması Qaydaları»nda bu tip kapital qoyuluşu məbləğləri 08 №-li «Kapital qoyuluşu» hesabında uçota alınır və mühasiblər tərəfindən 01№-li hesabda uçota alınmadığına görə, əmlak vergisinin hesablanmasında yayındırıla bilər. İstehsal təyinatlı kapital qoyuluşları olmayan digər kapital qoyuluşu nəticəsində istifadə edilən, lakin mülkiyyət hüququnu təsdiq edən sənədi olmayan tikililərin Vergi Məcəlləsinin 143-cü maddəsinin tələbi həcmində dəyərlə vergi uçotunda əsas vəsait kimi uçota alınması qanunsuz hesab edilməməlidir».

Göründüyü kimi, mühasiblər əmlak vergisinin hesablanması zamanı vergi uçotunun tələblərini mühasibat uçotu qaydalarında nəzərdə tutulan tələblərdən üstün tutmalı və vergilərin düzgün hesablanmasına nail olmalıdırlar.

**Fəxriyyə İKRAMQIZI**

# Bakı şəhəri üzrə zonaların sərhədləri müəyyənləşdi

**Vergi Məcəlləsində 2016-cı il yanvarın 1-dən qüvvəyə minən son dəyişikliklərə əsasən, mənzil və qeyri-yaşayış sahələrinin satışı zamanı ödəmə mənbəyində sadələşdirilmiş verginin tətbiqi ilə əlaqədar Bakı şəhəri, habelə onun qəsəbə və kəndləri üzrə zonaların sərhədləri təsdiq edilib. Bununla əlaqədar Nazirlər Kabineti «Azərbaycan Respublikası Vergi Məcəlləsinin 220.8.1-ci maddəsinə uyğun olaraq, sadələşdirilmiş verginin məqsədləri üçün Bakı şəhəri, habelə onun qəsəbə və kəndləri üzrə zonaların sərhədləri»nin təsdiq edilməsi haqqında qərar verib.**

**I ZONA**nın sərhədləri Əl Oyunları Stadionundan başlayaraq, şimal-şərq istiqamətində Mikayıl Hüseynov prospekti üzrə «Azneft» meydanına qədər, «Azneft» meydanından Niyazi küçəsi üzrə İstiqlaliyyət küçəsi ilə kəsişənədək, İstiqlaliyyət küçəsi üzrə Hüsü Hacıyev küçəsi ilə kəsişənədək, Hüsü Hacıyev küçəsi üzrə Nizami küçəsi ilə kəsişənədək, Nizami küçəsi üzrə şərq istiqamətində Rixard Zorge küçəsi ilə kəsişənədək, Rixard Zorge küçəsi üzrə cənub istiqamətində küçənin dənizin sahil xətti ilə kəsişməsinədək, sahil xətti üzrə qərb istiqamətində Əl Oyunları Stadionunadək ərazini əhatə edir.

**II ZONA**nın sərhədləri Hüsü Hacıyev küçəsinin Nizami küçəsi ilə kəsişməsindən başlayaraq, şimal istiqamətində Hüsü Hacıyev küçəsi üzrə Füzuli küçəsi ilə kəsişənədək, Füzuli küçəsi üzrə Rəşid Behbudov küçəsi ilə kəsişənədək, Rəşid Behbudov küçəsi üzrə şimal istiqamətində Süleyman Rəhimov küçəsi ilə kəsişənədək, Süleyman Rəhimov küçəsi üzrə şərq istiqamətində Xətai prospekti ilə kəsişənədək, bu kəsişmə yerindən metronun «28 May» stansiyası və dəmiryol vağzalı daxil olmaqla, Puşkin küçəsi üzrə Nizami küçəsi ilə kəsişənədək, Nizami küçəsi üzrə qərb istiqamətində küçənin Hüsü Hacıyev küçəsi ilə kəsişdiyi yerədəkdir.

**III ZONA**nın sərhədləri Şəhidlər xiyabanından başlayaraq, şimal istiqamətində Mehdi Hüseyn küçəsi üzrə Nəriman Nərimanov prospektinədək, Nəriman Nərimanov prospekti üzrə İnşaatçılar prospekti ilə kəsişənədək, İnşaatçılar prospekti üzrə İzmir küçəsi ilə kəsişənədək, İzmir küçəsi üzrə Tbilisi prospekti ilə kəsişənədək, Tbilisi prospekti üzrə cənub istiqamətində Bakıxanov küçəsi ilə kəsişənədək, Bakıxanov küçəsi üzrə şərq istiqamətində Azadlıq prospekti ilə kəsişənədək, Azadlıq prospekti üzrə şimal istiqamətində akademik Həsən Əliyev küçəsi ilə kəsişənədək, akademik Həsən Əliyev küçəsi üzrə şərq istiqamətində Aşıq Molla küçəsi ilə kəsişənədək, Aşıq Molla küçəsi üzrə cənub istiqamətində Fətəli xan Xoyski prospekti ilə kəsişənədək, Fətəli xan Xoyski prospekti üzrə şərq istiqamətində Əhməd Rəcəbli küçəsi ilə kəsişənədək, Əhməd Rəcəbli küçəsi üzrə şimal istiqamətində Yusif Vəzir Çəmənzəminli küçəsi ilə kəsişənədək, Yusif Vəzir Çəmənzəminli küçəsi üzrə Ağa Nemətulla küçəsi ilə kəsişənədək, Ağa Nemətulla küçəsi üzrə cənub istiqamətində Heydər Əliyev prospekti ilə kəsişənədək, Heydər Əliyev prospekti üzrə qərb istiqamətində Babək prospekti ilə kəsişənədək, Babək prospekti üzrə şərq istiqamətində Nəcəfqulu Rəfiyev küçəsi ilə kəsişənədək, Nəcəfqulu Rəfiyev küçəsi üzrə cənub istiqamətində Süleyman Vəzirov küçəsi ilə kəsişənədək, Süleyman Vəzirov küçəsi üzrə şərq istiqamətində Xaqani Rüstəmov küçəsi ilə kəsişənədək, Xaqani Rüstəmov küçəsi üzrə cənub istiqamətində Dənizkənarı küçəni kəsərək keçən düz xəttin dənizin sahil xətti ilə kəsişməsinədək, dənizin sahil xətti üzrə qərb istiqamətində Rixard Zorge küçəsi ilə kəsişənədək, Rixard Zorge küçəsi üzrə şimal istiqamətində Nizami küçəsi ilə kəsişənədək, Nizami küçəsi üzrə qərb istiqamətində Puşkin küçəsi ilə kəsişənədək, Puşkin küçəsi üzrə şimal istiqamətində dəmiryol vağzalının şərq tərəfindən keçərək Süleyman Rəhimov küçəsi ilə kəsişənədək, Süleyman Rəhimov küçəsi üzrə qərb istiqamətində Rəşid Behbudov küçəsi ilə kəsişənədək, Rəşid Behbudov küçəsi üzrə cənub istiqamətində Füzuli küçəsi ilə kəsişənədək, Füzuli küçəsi üzrə qərb istiqamətində Hüsü Hacıyev küçəsi ilə kəsişənədək, Hüsü Hacıyev küçəsi üzrə cənub istiqamətində İstiqlaliyyət küçəsi ilə kəsişənədək, İstiqlaliyyət küçəsi üzrə qərb istiqamətində Niyazi küçəsi ilə kəsişənədək, Niyazi küçəsi üzrə cənub istiqamətində Mikayıl Hüseynov prospekti ilə kəsişənədək, Mikayıl Hüseynov prospekti üzrə qərb istiqamətində Əl Oyunları Stadionunadək, Əl Oyunları Stadionundan «Gülüstan» sarayının yanından keçən xətlə Şəhidlər xiyabanınadək ərazini əhatə edir.

**IV ZONA**nın sərhədlərinə Şəhidlər xiyabanından başlayaraq, Milli Məclis və hərbi hissənin stadionu daxil olmaqla, şimal istiqamətində Yasamal rayonunun inzibati sərhədi üzrə Mətbuat prospekti ilə kəsişənədək, Mətbuat və Həsən bəy Zərdabi prospektləri üzrə şimal istiqamətində Akim Abbasov küçəsi ilə kəsişənədək, Akim Abbasov küçəsi üzrə şərq istiqamətində Azad Mirzəyev küçəsi ilə kəsişənədək, Azad Mirzəyev küçəsi üzrə cənub istiqamətində İnşaatçılar və Nəriman Nərimanov prospektləri kəsişənədək, Nəriman Nərimanov prospekti üzrə cənub istiqamətində Mehdi Hüseyn küçəsi ilə kəsişənədək, Mehdi Hüseyn küçəsi üzrə cənub istiqamətində Şəhidlər xiyabanınadək ərazi daxildir.

**V ZONA**nın sərhədləri metronun «20 Yanvar» stansiyasından başlayaraq, cənub istiqamətində Tbilisi prospekti üzrə İzmir küçəsi ilə kəsişənədək, İzmir küçəsi üzrə cənub istiqamətində İnşaatçılar prospekti ilə kəsişənədək, İnşaatçılar prospekti üzrə cənub istiqamətində Azad Mirzəyev küçəsi ilə kəsişənədək, Azad Mirzəyev küçəsi üzrə şimal istiqamətində Akim Abbasov küçəsi ilə kəsişənədək, Akim Abbasov küçəsi üzrə qərb istiqamətində Həsən bəy Zərdabi prospekti ilə kəsişənədək, Həsən bəy Zərdabi və Mətbuat prospektləri üzrə cənub istiqamətində Abbas Mirzə Şərifzadə küçəsi ilə kəsişənədək, Abbas Mirzə Şərifzadə küçəsi üzrə şimal istiqamətində Müzəffər Həsənov küçəsi ilə kəsişənədək, Müzəffər Həsənov küçəsi üzrə qərb istiqamətində Ülvi Bünyadzadə küçəsi ilə kəsişənədək, Ülvi Bünyadzadə küçəsi üzrə şimal-şərq istiqamətində Moskva prospekti ilə kəsişənədək, Moskva prospekti üzrə cənub istiqamətində metronun «20 Yanvar» stansiyasınadəkdir.

**VI ZONA**nın sərhədləri İzmir küçəsinin Tbilisi prospekti ilə kəsişməsindən başlayaraq, Tbilisi prospekti üzrə cənub istiqamətində Bakıxanov küçəsi ilə kəsişənədək, Bakıxanov küçəsi üzrə şərq istiqamətində Azadlıq prospekti ilə kəsişənədək, Azadlıq prospekti üzrə şimal istiqamətində akademik Həsən Əliyev küçəsi ilə kəsişənədək, akademik Həsən Əliyev küçəsi üzrə şərq istiqamətində Aşıq Molla küçəsi ilə kəsişənədək, Aşıq Molla küçəsi üzrə cənub istiqamətində Fətəli xan Xoyski prospekti ilə kəsişənədək, Fətəli xan Xoyski prospekti üzrə şərq istiqamətində Əhməd Rəcəbli küçəsi ilə kəsişənədək, Əhməd Rəcəbli küçəsi üzrə şimal istiqamətində Ziya Bünyadov prospekti ilə kəsişənədək, Ziya Bünyadov prospekti üzrə qərb istiqamətində Rəşid Məmmədov küçəsi ilə kəsişənədək, Rəşid Məmmədov küçəsi üzrə şimal istiqamətində Hüseyn Seyidzadə küçəsi ilə kəsişənədək, Hüseyn Seyidzadə küçəsi üzrə şimal istiqamətində 20 Yanvar küçəsi ilə kəsişənədək, 20 Yanvar küçəsi üzrə qərb istiqamətində Moskva prospekti ilə kəsişənədək, 2-ci köndələn küçəsinin Heydər Əliyev prospekti ilə kəsişməsindən başlayaraq, şərq istiqamətində Nizami rayonunun inzibati sərhədi boyunca metronun «Koroğlu» stansiyasınadək, metronun «Koroğlu» stansiyasından başlayaraq, cənub istiqamətində Qara Qarayev prospekti üzrə Bəhruz Nuriyev küçəsi ilə kəsişənədək, Naxçıvanski küçəsi ilə kəsişənədək, Naxçıvanski küçəsi üzrə şərq istiqamətində Elşən Süleymanov küçəsi ilə kəsişənədək, Elşən Süleymanov küçəsi üzrə cənub istiqamətində Babək prospekti ilə kəsişənədək, Babək prospekti üzrə qərb istiqamətində Bəkir Çobanzadə küçəsi ilə kəsişənədək, Bəkir Çobanzadə küçəsi üzrə şimal istiqamətində Rüstəm Rüstəmov küçəsi ilə kəsişənədək, Rüstəm Rüstəmov küçəsi üzrə qərb istiqamətində Mikayıl Əliyev küçəsi ilə kəsişənədək, Mikayıl Əliyev küçəsi üzrə şimal istiqamətində dəmiryol xətti ilə kəsişənədək, dəmiryol xətti üzrə qərb istiqamətində 9-cu köndələn küçəsi ilə kəsişənədək, 9-cu köndələn küçəsi üzrə Pəhlivan Fərzəliyev küçəsi ilə kəsişənədək, qərb istiqamətində Pəhlivan Fərzəliyev küçəsi üzrə 2-ci köndələn küçəsi ilə kəsişənədək, 2-ci köndələn küçəsi üzrə bu küçənin Heydər Əliyev prospekti ilə kəsişdiyi yerədək, Əl Oyunları Stadionundan başlayaraq, şimal-şərq istiqamətində 3-cü zonanın sərhədi üzrə «Gülüstan» sarayının yanından keçən xətlə Şəhidlər xiyabanınadək, Şəhidlər xiyabanından şimal istiqamətində 4-cü zonanın Milli Məclisin və hərbi hissənin stadionunun yanından keçən sərhədi ilə Səbail rayonunun inzibati sərhədinin Mətbuat prospekti və Mikayıl Müşfiq küçəsi ilə kəsişənədək, bu kəsişmə yerindən qərb istiqamətində Səbail rayonunun inzibati sərhədi üzrə cənub-qərb istiqamətində davam edir və bu rayonun digər zonalarla əhatə olunmayan ərazisini əhatə edir. 6-cı zonaya Heydər Əliyev Beynəlxalq Aeroportunun və aeroport yarmarkasının yerləşdiyi ərazi də daxildir.

**VII ZONA** metronun «20 Yanvar» stansiyasından başlayaraq, şimal istiqamətində Moskva prospekti üzrə 20 Yanvar küçəsi ilə kəsişənədək, 20 Yanvar küçəsi üzrə şərq istiqamətində Hüseyn Seyidzadə küçəsi ilə kəsişənədək, Hüseyn Seyidzadə küçəsi üzrə şərq istiqamətində Rəşid Məmmədov küçəsi ilə kəsişənədək, Rəşid Məmmədov küçəsi üzrə cənub istiqamətində Ziya Bünyadov prospekti ilə kəsişənədək, Ziya Bünyadov prospekti üzrə şərq istiqamətində Əhməd Rəcəbli küçəsi ilə kəsişənədək, Əhməd Rəcəbli küçəsi üzrə cənub istiqamətində Yusif Vəzir Çəmənzəminli küçəsi ilə kəsişənədək, Yusif Vəzir Çəmənzəminli küçəsi üzrə şərq istiqamətində Ağa Nemətulla küçəsi ilə kəsişənədək, Ağa Nemətulla küçəsi üzrə cənub istiqamətində Heydər Əliyev prospekti ilə kəsişənədək, Heydər Əliyev prospekti üzrə qərb istiqamətində Babək prospekti ilə kəsişənədək, Babək prospekti üzrə şərq istiqamətində Bəkir Çobanzadə küçəsi ilə kəsişənədək, Bəkir Çobanzadə küçəsi üzrə şimal istiqamətində Rüstəm Rüstəmov küçəsi ilə kəsişənədək, Rüstəm Rüstəmov küçəsi üzrə qərb istiqamətində Mikayıl Əliyev küçəsi ilə kəsişənədək, Mikayıl Əliyev küçəsi üzrə şimal istiqamətində dəmiryol xətti ilə kəsişənədək, dəmiryol xətti üzrə qərb istiqamətində 9-cu köndələn küçəsi ilə kəsişənədək, 9-cu köndələn küçəsi üzrə Pəhlivan Fərzəliyev küçəsi ilə kəsişənədək, qərb istiqamətində Pəhlivan Fərzəliyev küçəsi üzrə 2-ci köndələn küçəsi ilə kəsişənədək, 2-ci köndələn küçəsi üzrə şimal istiqamətində Nərimanov rayonunun sərhədi ilə kəsişənədək, Nərimanov rayonunun sərhədi üzrə şərq istiqamətində Böyük Şor gölünün sahil xətti ilə kəsişənədək, Böyük Şor gölünün sahil xətti üzrə qərb istiqamətində Nərimanov, Binəqədi rayonlarının sərhədləri kəsişənədək davam edir və Binəqədi, Nəsimi rayonlarının digər zonalarla əhatə olunmayan ərazilərini əhatə edir.

**VIII ZONA** dənizin sahil xəttindən başlayan və şimal istiqamətində Xaqani Rüstəmov küçəsi boyunca keçən düz xəttin Süleyman Vəzirov küçəsi ilə kəsişməsinədək, Süleyman Vəzirov küçəsi üzrə qərb istiqamətində Nəcəfqulu Rəfiyev küçəsi ilə kəsişənədək, Nəcəfqulu Rəfiyev küçəsi üzrə şimal istiqamətində Babək prospekti ilə kəsişənədək, Babək prospekti üzrə şərq istiqamətində Elşən Süleymanov küçəsi ilə kəsişənədək, Elşən Süleymanov küçəsi üzrə şimal istiqamətində Naxçıvanski küçəsi ilə kəsişənədək, Naxçıvanski küçəsi üzrə qərb istiqamətində Qara Qarayev prospekti ilə kəsişənədək, Qara Qarayev prospekti üzrə şimal istiqamətində Böyük Şor küçəsi ilə kəsişənədək, Böyük Şor küçəsi üzrə şimal istiqamətində Nərimanov rayonunun sərhədi ilə kəsişənədək, Nərimanov rayonunun sərhədi üzrə şimal istiqamətində Böyük Şor gölünün sahilinədək, Böyük Şor gölünün sahili üzrə şərq istiqamətində Böyük Şor şosesi ilə kəsişənədək, Böyük Şor şosesi üzrə şimal istiqamətində Sabunçu dairəsinədək, Sabunçu dairəsindən şəhər şosesi üzrə şimal istiqamətində Sabunçu qəsəbəsinin şimal sərhədi boyunca şərqə doğru Suraxanı rayonunun sərhədi ilə kəsişənədək, bu kəsişmə yerindən Suraxanı rayonunun sərhədi üzrə cənub istiqamətində sərhədin Məmmədhəsən Hacınski küçəsi ilə kəsişməsinədək, Məmmədhəsən Hacınski küçəsinin Nizami İsmayılov küçəsi ilə kəsişənədək, Nizami İsmayılov küçəsi üzrə qərb istiqamətində Əhməd Möhbalıyev prospekti ilə kəsişənədək, Əhməd Möhbalıyev prospekti üzrə cənub istiqamətində Xətai rayonunun sərhədi ilə kəsişənədək, bu kəsişmə yerindən Xətai rayonunun sərhədi üzrə cənub istiqamətində davam edərək, bu rayonun digər zonalarla əhatə olunmayan ərazisini əhatə edir.

**IX ZONA**ya Babək prospektinin 3-cü dairəvi küçə ilə kəsişdiyi yerdən başlayaraq, dəmiryol xətti üzrə cənub istiqamətində Aşıq Ələsgər küçəsinədək, Aşıq Ələsgər küçəsi üzrə şərq istiqamətində Məhəmməd Hadi küçəsi ilə kəsişənədək, Məhəmməd Hadi küçəsi üzrə şimal istiqamətində Babək prospekti ilə kəsişənədək, Babək prospekti üzrə qərb istiqamətində prospektin 3-cü dairəvi küçə ilə kəsişməsinədək, Suraxanı rayonunun Əmircan və Bülbülə qəsəbələri və bu rayonun digər zonalarla əhatə olunmayan əraziləri daxildir.

**X ZONA**ya Yasamal rayonunun digər zonalarla əhatə olunmayan hissəsi, Zuğulba, Buzovna, Mərdəkan, Şüvəlan, Lökbatan, Hövsan, Binə, Maştağa, Nardaran qəsəbələri, Binəqədi rayonunun Binəqədi qəsəbəsinin cənub sərhədi üzrə şərqdən qərbə doğru keçən xəttin şimalında yerləşən və digər zonalarda göstərilməyən ərazisi, Pirallahı rayonunun ərazisi aiddir.

**XI ZONA** Zığ, Sahil, Ramana, Zabrat qəsəbələrinin ərazisinə aiddir.

**XII ZONA** Qaradağ, Xəzər və Sabunçu rayonlarının digər zonalarla əhatə olunmayan ərazilərini əhatə edir.

***Məlumat üçün:*** *Vergi Məcəlləsinə edilən dəyişikliyə əsasən, bina tikintisi fəaliyyəti ilə məşğul olan şəxslər üçün sadələşdirilmiş vergi vergitutma obyektinin hər kvadratmetri üçün 45 manat, fiziki şəxslər üçün vergitutma obyektinin hər kvadratmetri üçün 15 manat olmaqla hesablanır. Bu zaman bina Bakı şəhəri, habelə onun qəsəbə və kəndlərində yerləşirsə, sadələşdirilmiş vergi məbləğinə Nazirlər Kabineti tərəfindən müəyyən olunmuş zonalardan asılı olaraq, əmsallar tətbiq ediləcək. Bakıda bina tikintisi fəaliyyətinin faktiki həyata keçirildiyi (binanın faktiki yerləşdiyi) ərazi üzrə əmsal 1-ci zona üzrə 4, ikinci zona üzrə 3, 3-cü və 4-cü zona üzrə 2,2, 5-ci və 6-cı zona üçün 1,8, 7-ci, 8-ci və 9-cu zona üçün 1,5, 10-cu,11-ci və 12-ci zona üçün 1,2-dir. Məsələn, Bakıda 1-ci zonada hər hansı fərdi şəxs mülkiyyətində olan 60 kvadratmetr mənzilini satarkən 3600 manat (60 kv.m*15AZN*4=3600 manat), 12-ci zonada hər hansı fərdi şəxs 60 kvadratmetr mənzilini satarkən 1080 manat (60 kv.m*15AZN*1,2=1080 manat) vergi ödəməlidir.*

*Qeyd edək ki, fiziki şəxsin azı 5 il ərzində yaşayış yeri üzrə qeydiyyatda olduğu yaşayış sahələrinin təqdim edilməsi, daşınmaz əmlakın hədiyyə, maddi yardım və miras formasında Vergi Məcəlləsinin 13.2.7-ci maddəsində nəzərdə tutulan ailə üzvləri (ər-arvadlar, valideynlər, övladlar və övladlığa götürülmüş şəxslər, vərəsələr, doğma (ögey) bacılar (qardaşlar), bacı və qardaş övladları, ər-arvadların bacıları, qardaşları və valideynləri, bacıların ərləri və qardaşların arvadları, valideynlərin bacıları (qardaşları), qəyyumlar və qəyyumluğa götürülənlər, onların arasındakı ev təsərrüfatı birliyi nəticəsində biri o biri ilə valideyn və övlad kimi bağlı olduqda) tərəfindən verilməsi, daşınmaz əmlakın dövlət ehtiyacları üçün alınması, əmlakın ər və arvad arasında verilməsi, keçmiş ər-arvad arasında boşanma prosesində verilməsi ödəmə*



# Sahibkarlıqda rəqabət və əməkdaşlıq sistemi

**«AZƏRBAYCANDA SƏNAYENİN İNKİŞAFINA DAİR 2015-2020-Cİ İLLƏR ÜÇÜN DÖVLƏT PROQRAMI»NA ƏSASƏN, BU DÖVR ƏRZİNDƏ ÖLKƏDƏ TEXNOPARKLAR ŞƏBƏKƏSİNİN QURULMASI İLƏ YANAŞI, SƏNAYE KLASTERLƏRİNİN FORMALAŞDIRILMASI DA NƏZƏRDƏ TUTULUR. MÖVZUNUN AKTUALLIĞINI NƏZƏRƏ ALARAQ «TREND» İNFORMASİYA AGENTLİYİNİN ŞƏRHİ ƏSASINDA HAZIRLANMIŞ YAZINI TƏQDİM EDİRİK.**

Klaster modeli XX əsrin 60-70-ci illərindən tətbiq edilən mexanizmdir. Klasterlər - eyni və ya bənzər sektorda fəaliyyət göstərən, əlaqəli və bir-birini tamamlayan fəaliyyət sahələrinin müəyyən coğrafi bölgədə yerləşməsi ilə meydana gələn, ümumi infrastruktur, texnologiya, vahid bazar, işçi qüvvəsi və xidmətləri paylaşaraq qarşılıqlı ticarət əlaqələrinin qurulması, kommunikasiya və qarşılıqlı dialoq imkanlarına malik sahibkarlıq subyektlərindən ibarət sistemlərdir.



Klasterlər universitetlərlə sənaye müəssisələri arasında daha yaxın əlaqələrin qurulmasını şərtləndirir, müəyyən sahənin inkişafına kömək göstərəcək təhsil müəssisələrinin qurulmasını asanlaşdırır. Stenford Universitetinin «Silikon vadisi» klasterinin yaxınlığında yerləşməsi, innovativ texnologiyalar sahəsində ixtisaslaşmış klasterlərin Massaçusets Texnologiya İnstitutu və ya Kembric Universitetinin ətrafında fəaliyyət göstərməsi buna misal ola bilər.

Modelin tətbiq edildiyi ölkələrin əksəriyyətində klasterlər iqtisadi cəhətdən böyük əhəmiyyət daşıyır. Klasterlərin ən çox inkişaf etdiyi ölkələr ABŞ, İtaliya, Almaniya, İngiltərə, İsveç, Yaponiya, Fransa, Çin, Hindistan, Pakistan, Braziliya və Meksikadır. İKT üzrə dünyada ən çox tanınmış klaster isə ABŞ-dakı «Silikon vadisi»dir.

Klaster modelinin Azərbaycanda tətbiqi imkanlarına gəlincə, İqtisadiyyat və Sənaye Nazirliyində hesab edirlər ki, ölkədə vertikal sənaye klasteri (məhsulların istehsalından başlayaraq, son istehlakçıya qədər olan təchizat zəncirini özündə əks etdirən klaster) modelinə bənzər sahələr artıq mövcuddur. Amma klasterlərə məxsus bütün keyfiyyətləri əhatə etmədiyindən, həmin sahələrdə tam olaraq klasterlərin yaradıldığını demək çətindir. Azərbaycanda bu mexanizmin tətbiqinə başlamaq üçün klasterlərin seçilməsi, regional iqtisadiyyatda rəqabət gücü nisbətən yüksək olan və dövlət dəstəyi ilə qısa müddətdə maksimum nəticənin əldə edilə biləcəyi sahələrin müəyyənləşdirilməsinə ehtiyac var.

Hesab edilir ki, regionların daxili potensialı və təcrübələr nəzərə alınmaqla hər regiona uyğun xüsusi klasterlərin qurulması, diversifikasiya yaradılması, yeni məhsul və xidmətlərin daxili və xarici bazarlarda ən yaxşı şəkildə təqdim edilməsi, bununla da qeyri-neft sektorunda istehsalın və ixracın artırılması istiqamətində mühüm addımlar atılmalıdır. Buna baxmayaraq, fərdi şəkildə inkişafa meylin daha güclü olduğu Azərbaycan kimi ölkələrdə klasterlərin qurulmasının asan olmadığı da nəzərə alınmalıdır. Milli xüsusiyyətlər əsasında sosioloji araşdırmalar aparıldıqdan sonra bu prosesə başlanılmalıdır.

İqtisadiyyat və Sənaye Nazirliyinin İqtisadi İslahatlar və Elmi Tədqiqat İnstitutunun elmi tədqiqatçısı, Qafqaz Universiteti Texnoparkının direktoru İsa Qasımov klasterləşmə prosesinin təşviqi ilə bağlı bildirib ki, bu modeldə müəyyən sahə, həmçinin bu sahə ilə əlaqədar digər yardımçı sahələr üzrə qruplaşma (ixtisaslaşma) mövcuddur. Bu isə yüksək texnologiyaların inkişafında innovasiya sahibkarlığının inkişafına münbit şərait verir. Klaster həm sahibkarlığın, həm də innovasiyaların inkişafına müsbət təsir edir.

Klaster modelinin ölkənin yüksək texnologiyalar və İKT sənayesində tətbiqindən söz açan tədqiqatçı hesab edir ki, bu sahədə tətbiq olunan güzəştlər (vergi, gömrük və strateji plana görə mümkün olan digər üstünlüklər) sahibkarların və ya tədqiqatçıların fəaliyyətini təşviq edən amillərdən sayıla bilər. Klaster modelinin üstünlüklərindən biri də layihə mərhələsində olan işlərin zəruri xərclərinin azaldılması imkanıdır: «Son zamanlar dünyada baş verən böhran şəraiti və onun Azərbaycana təsirləri qiymətləndirilərkən Prezident İlham Əliyevin iqtisadi inkişafda qənaət amilinin nəzərə alınmasının vacib olduğunu vurğulaması klaster modellərinin tətbiqini aktuallaşdırır. Klaster yanaşmaları sahibkarlığın inkişafında qənaətcil imkanlar formalaşdırır».

Mütəxəssisin sözlərinə görə, klaster modelinin tətbiqinin doğru yanaşma olması dünyada özünü təsdiq etmişdir: «Bu metodun İKT-nin, eləcə də sənayenin digər sahələrinin inkişaf etdirilməsi istiqamətində Azərbaycandakı imkanlarına gəlincə, prosesin təməl prinsiplərinə daha diqqətlə yanaşılmasının doğru olduğu qənaətindəyəm. Klaster modeli sahələr üzrə kompleks yanaşmadan irəli gəlir, prosesin aparıcı istiqaməti isə innovasiyaların tapılması və tətbiqidir. Ona görə də, ilk növbədə, innovasiyaları formalaşdıracaq ekosistemin inkişafına zəmin hazırlamaq lazımdır».

İ.Qasımovun sözlərinə görə, yeni texnoloji yanaşmaların tətbiqinə və təşəbbüskar yanaşmaya əhəmiyyət verilən təhsil sistemi inkişaf etdirilməlidir: «Tətbiq əhəmiyyəti olan, nəticəyə əsaslanan elmi tədqiqat işləri dəstəklənməli və bu cür tədqiqatları həyata keçirəcək akademik yanaşma formalaşdırılmalıdır. Peşəkarlarla (real biznes nümayəndələri ilə) elmi tədqiqat (və ya təhsil) müəssisələrinin ortaq layihələri təşviq edilməlidir. İnnovativ sahibkarlığın inkişafı dəstəklənməli, sənaye məhsulu istehsalında kütləviləşməyə şərait formalaşdırılmalı, hazır məhsulun satışı imkanları artırılmalıdır».

# Kooperasiyaların yaradılması günün tələbidir

**Belarus Respublikası Azərbaycanda kənd təsərrüfatı və aqrar-sənaye sahələrində birgə layihələr həyata keçirməyi planlaşdırır. İki ölkə arasında iqtisadi əlaqələri daha da yaxşılaşdırmağı vacib sayan Belarus Respublikasının sənaye naziri Vitali Vovk bildirib ki, Azərbaycanda kooperasiya və aqroparkların yaradılması məqsədilə öz ölkəsinin biznes dairələri ilə müvafiq işlər aparılır. Qeyd olunub ki, iki ölkə arasında müştərək istehsalın yaxşı ənənəsi mövcuddur. Gəncə avtomobil zavodu bu sahədə ən yaxşı layihə və regionda ən rentabelli sənaye obyekti hesab edilir.**

Ötən ay Minskdə keçirilən Belarus-Azərbaycan biznes forumunda tərəflər arasında aqrar sahədə kooperasiyaların yaradılması barədə razılığa gəlindiyini xatırladan V.Vovk gələn ildən bu istiqamətdə əməli işlərə başlanılacağını deyib. Onun sözlərinə görə, Belarusun bu sahədə yaxşı təcrübəsi var və MDB-də ən güclü kooperasiyalar burada fəaliyyət göstərir. Ölkədə fermerlərin və kənd təsərrüfatı üzrə fəaliyyət göstərən sahibkarların bir araya gələrək formalaşdırdıqları kooperasiyalar aqrar sahə üzrə istehsalın 80%-dən çoxunu həyata keçirir. Belarus hökuməti həm istehlak, həm də kənd kredit kooperativlərinin inkişafını uzunmüddətli dövlət proqramları vasitəsilə tənzimləyir. Kənd təsərrüfatı istehsalı ilə məşğul olan kooperativlərin inkişafını stimullaşdırmaq üçün həm büdcə vəsaitlərindən, həm də müxtəlif maliyyə fondlarının dəstəyindən istifadə edilir. Kooperativlərə investisiya xarakterli yardımlar daha çox diqqətdədir.

Belarus hökuməti Azərbaycanın kənd təsərrüfatı məhsullarının emal müəssisələrinin yaradılması təklifini də müsbət qarşılayıb. Bu məqsədlə Belarusdakı emal sənayesinin potensialından istifadə edilə bilər. Milli Məclisin Aqrar siyasət komitəsinin sədri Eldar İbrahimov bildirib ki, yaxın vaxtlarda qəbul olunacaq «Kənd təsərrüfatı kooperasiyası haqqında» qanun layihəsinə əsasən, kooperasiyaların təşkil olunması sayəsində kənd mülkiyyətçilərinin birgə istehsal və emal müəssisələrinin yaradılması, satış məntəqələrinin təşkili nəzərdə tutulur. Layihə çərçivəsində kənd yerlərində torpaq mülkiyyətçilərinin birləşməsi planlaşdırılır. Hazırda əksər bölgələrdə kəndlilərin torpağı əkib-becərmək üçün texnika və digər vəsaitlərə ehtiyacı var, bu isə onların rəqabətədavamlı məhsul istehsal etməsinə mane olur. İnkişaf etmiş ölkələrin aqrar sahədəki təcrübəsi göstərir ki, sahibkarların sərəncamında 10-15 hektardan az torpaq olduqda onun təsərrüfatı rentabelli işləyə bilmir, bazar və ixrac yönümlü məhsul istehsalı potensialı aşağı olur. Azərbaycanda isə orta hesabla bir ev təsərrüfatına 1-1,5 hektar becərilən torpaq sahəsi düşür. Ona görə də hökumət torpaq sahiblərinin birləşərək istehsal kooperativləri yaratmalarını vacib sayır. Bu cür kooperasiyalar istehsalın artmasına və rəqabət qabiliyyətli məhsul istehsalına hesablanıb.

Kənd Təsərrüfatı Nazirliyindən bildirildiyinə görə, kooperasiya üçün bir neçə modelin tətbiqi üzərində təkliflər müzakirə edilir. Həmin modellərə əsasən, ilk mərhələdə kənd təsərrüfatı məhsulları istehsalçıları tərəfindən istehsal və istehlak kooperativləri yaradılacaq, sonrakı mərhələdə isə kooperativlər birləşərək sahə kooperativ ittifaqlarına çevriləcək. Bütün bunların bazasında isə milli kooperativlər ittifaqının yaradılması planlaşdırılır. Avropa və Asiya ölkələrində daha çox yayılmış modelə əsasən, Azərbaycan hökuməti ət və süd istehsalı üzrə ixtisaslaşmış kooperativ müəssisələrin fəaliyyətinə geniş yer vermək niyyətindədir.

**E. CƏFƏRLİ**

## vergi təqvimi

| YANVAR | | | | | | |
|---|---|---|---|---|---|---|
| I | II | III | IV | V | VI | VII |
| | | | | 1 | 2 | **3** |
| 4 | 5 | 6 | 7 | 8 | 9 | **10** |
| 11 | 12 | 13 | 14 | **15** | 16 | **17** |
| 18 | 19 | **20** | **21** | 22 | 23 | **24** |
| 25 | 26 | 27 | 28 | 29 | 30 | **31** |

**Qeyd:** *Verginin ödənilmə və bəyannamənin verilmə müddətinin sonuncu günü təqvimdə göy rənglə seçilmişdir. Həmin gün istirahət və ya bayram gününə düşdüyü halda, növbəti iş gününə keçirilmişdir.*

**Ödənilən vergi:**

15 yanvar - «(1)», «(2)»

21 yanvar - «1-1», «3», «4», «8», «9», «10.1», «10.2», «10.3» və «11»

**«(1) və (2)» - Gəlir və mənfəət vergisi:** Gəlir və mənfəət vergisi üzrə hesabat dövrü təqvim ilidir. Hüquqi şəxslər və fərdi sahibkarlar rüb qurtardıqdan sonra 15 gündən gec olmayaraq cari ödəmələri dövlət büdcəsinə ödəməlidirlər. Bələdiyyə mülkiyyətində olan müəssisə və təşkilatlar mənfəət vergisini yerli büdcəyə (bələdiyyə büdcəsinə) ödəyirlər. Cari vergi ödəmələri vergi ili üçün vergi ödəyicisindən tutulan verginin məbləğinə aid edilir.

Vergi ödəyicisi il ərzində cari vergi ödəmələrinin məbləğini öz seçiminə əsasən aşağıda göstərilən iki mümkün metoddan birinə uyğun müəyyənləşdirə bilər.

Birinci metod: Hər rüb üçün cari ödəmələrin məbləği əvvəlki vergi ilində hesablanmış verginin 1/4 hissəsi məbləğində müəyyən edilir.

İkinci metod: Cari rübdəki gəlirin məbləğini keçən ilin ümumi gəlirində (gəlirdən çıxılan məbləğlər nəzərə alınmadan) verginin xüsusi çəkisini göstərən əmsala vurmaqla müəyyən edilir. Bu zaman vergi ödəyicisi il ərzində cari vergi ödəmələrinin məbləğini müəyyənləşdirməyin yuxarıdakı iki mümkün metodundan birini seçir və hər il aprel ayının 15-dən gec olmayaraq bu barədə vergi orqanına məlumat verir. Vergi ödəyicisi cari vergi ödəmələrinin məbləğini müəyyənləşdirmək üçün tətbiq etdiyi metod barədə məlumat vermədiyi halda, vergi orqanı birinci metodu tətbiq edir.

Vergi ödəyicisi cari vergi ödəmələrinin məbləğini müəyyənləşdirmək üçün ikinci metodu seçdiyi halda, hər rüb başa çatdıqdan sonra 15 gün ərzində mənfəətdən və ya gəlirdən hesablanmış cari vergi məbləği barədə vergi orqanına arayış təqdim etməlidir, əks halda, vergi orqanı birinci metodu tətbiq edir.

Əvvəlki vergi ilində fəaliyyəti olmayan və növbəti vergi ilində fəaliyyət göstərən, habelə yeni yaradılmış və fəaliyyət göstərən vergi ödəyiciləri mənfəət və ya gəlir vergisi üzrə cari vergi ödəmələrini təqvim ili ərzində rüblər üzrə artan yekunla hesablamalı, cari vergi ödəmələrinin məbləği mənfəətdən və ya gəlirdən verginin məbləğinin 75 faizindən az olmamalı, rüb başa çatdıqdan sonra 15 gün ərzində cari vergi ödəmələrini aparmalı və rüb ərzində mənfəətdən və ya gəlirdən hesablanmış cari vergi məbləği barədə vergi orqanına arayış təqdim etməlidir.

**«(1-1)» - Gəlir vergisi (xüsusi notariuslar üzrə):** Xüsusi notariusların gəlir vergisi üzrə hesabat dövrü rübdür.

Xüsusi notariuslar tərəfindən hər ay ərzində aparılan notariat hərəkətlərinə, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətlərə görə alınan haqlardan (xərclər nəzərə alınmadan) 10 faiz dərəcə ilə gəlir vergisi hesablanmalı, hesablanmış vergi məbləği isə növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməlidir. Xüsusi notariuslar tərəfindən aparılan notariat hərəkətlərinə, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətlərə görə alınan haqlardan (xərclər nəzərə alınmadan) hesablanan gəlir vergisi barədə «Xüsusi notariusun gəlir vergisi bəyannaməsi» hər rüb başa çatdıqdan sonra növbəti ayın 20-dən gec olmayaraq vergi orqanına təqdim edilməlidir.

**«3» - Əlavə dəyər vergisi:** ƏDV üzrə hesabat dövrü təqvim ayı sayılır. ƏDV ödəyən vergi ödəyicisi ƏDV-nin bəyannaməsini hər hesabat dövrü üçün, hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq, qeydiyyatda olduğu vergi orqanına verməli və həmin müddətdə vergini dövlət büdcəsinə ödəməlidir.

**«4» - Aksiz vergisi:** Aksizlər üzrə hesabat dövrü təqvim ayıdır. Aksizli mallar istehsal edildikdə hər hesabat dövrü üçün vergi tutulan əməliyyatlar üzrə aksizlər hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməli və həmin müddətdə vergi orqanına bəyannamə verilməlidir.

**«7» - Yol vergisi:** Yol vergisi üzrə hesabat dövrü təqvim ayı sayılır. Azərbaycan Respublikasının ərazisində avtomobil benzininin, dizel yanacağının və maye qazın istehsalı ilə məşğul olan fiziki və hüquqi şəxslər yol vergisini aylıq olaraq hesablayır və hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq «Yol vergisinin bəyannaməsi»ni vergi orqanına təqdim etməklə vergini dövlət büdcəsinə ödəyirlər.

**«8» - Mədən vergisi:** Mədən vergisi üzrə hesabat dövrü təqvim ayıdır. Mədən vergisinin ödəyiciləri hesabat ayı üçün faydalı qazıntıların çıxarıldığı aydan sonrakı ayın 20-dən gec olmayaraq vergini ödəyir və bəyannamə verirlər. Yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisi yerli (bələdiyyə) büdcəyə ödənilir və bələdiyyələrə mədən vergisinin bəyannaməsi verilir. Yerli əhəmiyyətli tikinti materiallarına kərpic-kirəmit gilləri, tikinti qumları, çınqıl xammalı aid edilir.

**«9» - Sadələşdirilmiş vergi:** Sadələşdirilmiş vergi üçün hesabat dövrü rübdür. Sadələşdirilmiş verginin ödəyicisi olan şəxslər hesabat rübündən sonrakı ayın 20-dən gec olmayaraq ödənilməli olan verginin məbləği haqqında vergi orqanına bəyannamə verir və həmin müddətdə vergini dövlət büdcəsinə ödəyirlər.

**«10.2» - Ödəmə mənbəyində tutulan digər vergilər:** ƏDV və sadələşdirilmiş verginin ödəyicilərinin muzdlu işlə əlaqədar aparılan ödəmələri istisna olmaqla, ödəmə mənbəyində tutulan digər vergilər üzrə hesabat dövrü rübdür.

Hüquqi şəxslər və fərdi sahibkarlar qeyri-dövlət pensiyaları və ödəmə mənbəyində vergiyə cəlb olunmalı digər ödəmələri verərkən bu gəlirlərdən vergini tutmalı, tutulmuş məbləği gəlirin ödənildiyi rübdən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə köçürlməli və həmin müddətdə də bəyannaməni vergi orqanına təqdim etməlidirlər.

**«10.3» - Sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə ödəmə mənbəyində tutulan vergi:** Həyatın yığım sığortası və pensiya sığortası üzrə bağlanılmış sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə aparılan ödəmələrdən ödəmə mənbəyində tutulan verginin hesabat dövrü rübdür.

Həyatın yığım sığortası və pensiya sığortası üzrə bağlanılmış sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə, sığorta haqları ödəyən sığortaçılar fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisi hesablamalı və hesablanmış vergini növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməli və gəlirin ödənildiyi rübdən sonrakı ayın 20-dən gec olmayaraq bəyannaməni vergi orqanına təqdim etməlidirlər.

**«11» - Dövlət rüsumu:** Dövlər rüsumu üzrə hesabat dövrü rübdür. Notariat hərəkətlərinə görə dövlət rüsumu notarius tərəfindən qəbul edilərək iki bank günü ərzində, Azərbaycan Respublikasının xarici ölkələrdəki diplomatik nümayəndəliklərində aparılan konsul əməliyyatları üçün alınan dövlət rüsumu bir ay ərzində, digər dövlət rüsumları isə tutulduqdan sonra bir bank günü ərzində dövlət büdcəsinə köçürülür.

«Dövlət rüsumu haqqında» Qanunda nəzərdə tutulmuş dövlət rüsumunu tutan şəxslər hesabat rübündən sonrakı ayın 20-dək dövlət rüsumunun tutulması barədə hesabatları vergi orqanına təqdim etməlidirlər.



beynəlxalq panoram

# Avstriyada daşınmaz əmlak üzrə vergi islahatları aparılır

Ölkədə daşınmaz əmlakın vergiyə cəlb olunması ilə bağlı qanunvericilikdə edilmiş dəyişikliklər artıq qüvvəyə minib. Bu dəyişikliklərin kommersiya əmlakı sektorunda vəziyyətə əhəmiyyətli təsir göstərəcəyi proqnozlaşdırılır.

Yeni qanuna görə, korporativ sektorda bütün mülkiyyət üçün amortizasiyanın norması 2,5% təşkil edir. Əgər binalar yaşayış obyekti kimi istifadə olunursa, bu zaman amortizasiya norması 1,5%-dir. Binaların təmirinə xərclərin amortizasiyası müddəti 10 ildən 15 ilə qədər artırılıb. Yeni qanunvericilikdə «təmir» ifadəsi altında pəncərə və qapıların əvəzlənməsi, damlar, liftlər, istilik, su sistemlərinin əsaslı təmiri, fasadın təmiri və s. başa düşülür.



Dəyişikliklərə əsasən, amortizasiyanın yeni normaları tətbiq olunur ki, bunun nəticəsində daşınmaz əmlak sahibləri mənfəət vergisini başqa cür hesablamalıdırlar. Əgər indiyə qədər kənd və meşə təsərrüfatında istifadə olunan binalar üçün amortizasiya norması 3%, bank və sığorta fəaliyyəti sahəsində 2,5%, sənayedə və başqa sahələrdə 2% təşkil edirdisə, bu ildən həmin dərəcələr unifikasiya edilib. Beləliklə, dəyişiklik bir sıra sahələrin mənafeyinə uyğun olsa da, bəziləri, əksinə, bundan zərər görəcəklər.

Yeniliklər daşınmaz əmlaka mülkiyyət hüquqlarının ötürülməsi zamanı ödənilən vergilərə də toxunur. Torpağın satışı zamanı verginin dərəcəsi bu ildən satılan sahənin dəyərinin 0,5%-ni təşkil edir. Qanun bəzi hallarda verginin ödənişini təxirə salmağa da icazə verir. Birgə və ya korporativ mülkiyyətdə olan əmlakın da vergiyə cəlb edilməsində dəyişikliklər var.

Ekspertlərin fikrincə, vergi qanunvericiliyinin yeni normaları Avstriya əmlak bazarının inkişafına imkan yaratmalıdır. Bir sıra mülk sahibləri bundan sonra dövlətə daha çox pul ödəməyə məcbur olsalar da, bütövlükdə, sistem daha sadə və aydın olacaq.

## Xəbər lenti

**Hindistan** hökuməti Maldiv adaları ilə vergilərə dair informasiya mübadiləsi öhdəliyi yaradan sazişin imzalanmasını və ratifikasiyasını təsdiq etmişdir. Sazişin məqsədi vergidən yayınmağa qarşı mübarizədir.

**Kolumbiya** Maliyyə Nazirliyinə vergi ekspertləri tərəfindən təqdim edilmiş islahat planında əlavə dəyər vergisinin hazırda qüvvədə olan 16%-dən 18 və ya 19%-ə qaldırılması təklif edilmişdir. Bundan əlavə, ƏDV-yə cəlb olunan mal və xidmətlərin siyahısı da genişləndiriləcək.

**Tayvan**la bağlı «Ernst&Young» şirkətinin proqnozunda göstərilmişdir ki, səhmlərin bir vergi «cənnətindən» digərinə ötürülməsi əmlak satışında vergidən yayınmağa gələcəkdə də şərait yaradacaq.

**Böyük Britaniya** hökuməti bu ilin əvvəlində ƏDV-nin istehlakçılara qaytarılıb-qaytarılmadığını dəqiqləşdirmək üçün hava limanlarındakı «duty-free» mağazalarında təftiş aparmaq qərarına gəlmişdir. Müşahidələrə görə, alıcılara qaytarılmalı olan ƏDV məbləğinin təxminən yarısı mağazaların kassalarında qalır.

**Fransa**da sənət əsərlərinin ticarəti ilə məşhur olan Vildenşteyn ailəsinin nümayəndələrinin məhkəməsi başlanmışdır. Sülalənin başçısı Qaya Vildenşteyni və onun mərhum qardaşı Aleki onlara atalarından qalmış mirası Baham və Kayman adaları kimi offşor zonalarda saxlamaqla vergidən yayınmaqda ittiham edirlər. İttiham təsdiq olunarsa, müttəhimlərə 10 il həbs və 550 milyon dollardan artıq cərimə kəsiləcəyi gözlənilir.

**«Citigroup»** və **«Credit Suisse»** bankları Britaniya filiallarının 2014-cü il üzrə korporativ vergiləri ödəmədiyi barədə informasiya yaymışdır. Bununla da Londonda korporotiv vergiləri ödəməkdən yayınan iri investisiya banklarının sayı yeddiyə çatmışdır. Bundan əvvəl «JP Morgan Chase», «Nomura», «Deutsche Bank», «Bank of America Merrill Lynch» və «Morgan Stanley» kimi maliyyə nəhənglərinin qanunu pozduqları məlum olmuşdu.

**Belçika** hökuməti yanvarın 1-dən dividendlərə və faiz gəlirlərinə ümumi vergi dərəcəsini 25%-dən 27%-ə qaldırmışdır.

Xarici ölkələrin təcrübəsi

# Yaponiyanın vergi sistemi: *digər vergilər*



***Sosial sığorta ödənişləri***

Yaponiyada işəgötürənlər həm sosial sığorta (sağlamlıq və pensiya sığortası), həm də əmək sığortası (işsizlik və işçi ilə bağlı bədbəxt hadisələrdən kompensasiya sığortası) sistemində iştirak etməlidirlər.

Sosial sığorta dərəcələri aşağıdakı kimidir:

| Sığorta | Ödəniş dərəcəsi (%) |
|---|---|
| Sağlamlıq sığortası: | |
| 40 yaşdan aşağı | 4,985% (dərəcələr prefekturalar üzrə fərqlidir, bu dərəcələr Tokio üçün olan dərəcədir) |
| 40 yaş və ondan yuxarı | 5,845% (Tokio üçün olan dərəcədir) |
| Rifah pensiya sığortası | 2015-ci ilin avqust ayınadək 8,737%, 2016-cı ilin avqust ayınadək 8,914%, 2017-ci ilin avqust ayınadək 9,091%, 2018-ci ilin avqust ayınadək 9,15% |
| İşsizlik sığortası | 0,85%-1,05% |
| İşçinin bədbəxt hadisələrdən kompensasiya sığortası | 0,25%-8,9% |

İşəgötürənlər tərəfindən ödənilən sığorta ödənişləri mənfəət vergisi məqsədləri üçün tamamilə gəlirdən çıxılır.

***Xüsusi qapalı müəssisələr üçün məcmu qazancdan vergi***

Bir səhmdar və onunla əlaqəli şəxslər tərəfindən idarə olunan xüsusi qapalı müəssisələr saxlanılan qazancdan vergi öhdəliyi daşıya bilərlər. Bu müddəa səhmdarların dividend bölüşdürmələrini verməməsinə və ya təxirə salmasına qarşı tətbiq edilir. Bu qaydanın məqsədləri üçün müəssisənin səhmlərinin 50%-dən çoxu bir şəxsə və ya həmin şəxslə əlaqəli müəssisəyə və ya fiziki şəxslərə məxsus olduqda, həmin müəssisələr ailə müəssisələri hesab edilir.

Vergiyə cəlb olunan saxlanılan mənfəətin hesablanması üçün xüsusi düstur tətbiq edilir. Gəlirin həcmindən asılı olaraq, dərəcələr 10%, 15%, 20% təşkil edə bilər. Kiçik və orta həcmli müəssisələr bu vergini ödəmək öhdəliyindən azaddır.

***Xüsusi yenidənqurma vergisi***

2011-ci ildə Yaponiyada baş vermiş zəlzələnin nəticələrinin aradan qaldırılmasının maliyyələşdirilməsi üçün mənfəət vergisi öhdəliyi üzrə əlavə 2,1%-lik vergi (mənfəət vergisi öhdəliyi 2,1%) tətbiq edilməyə başlamışdır. Bu verginin 2013-2037-ci illər ərzində ödənilməsi nəzərdə tutulub. Yaponiya hökumətinin imzaladığı beynəlxalq müqavilələrdə mənfəət və gəlir vergisinin azaldılması nəzərdə tutulduğu hallarda, müqavilə subyektlərinə münasibətdə xüsusi yenidənqurma vergisi tətbiq edilmir.

***Əməkhaqqı fondundan vergi***

Yaponiyada sahibkarlıq üzrə məşğulluq vergisi digər ölkələrdəki ümumi əməkhaqqı fondundan hesablanan vergi xarakteri daşıyır. Bu vergi konkret şəhərlərin - Tokio, Yokohama, Osaka, Naqoyanın bələdiyyə orqanları tərəfindən yığılmaqla iki elementdən ibarətdir: mənzil sahəsi vergisi (əgər ümumi sahə 1000 kvadratmetrdən çoxdursa, hər kvadratmetrə görə 600 yen (4,98 dollar) və əməkhaqqı bazasından vergi (əgər işçi sayı 100-dən çoxdursa, ümumi əməkhaqqı fondunun 0,25%-i). *Bax diaqrama.*

***Daşınmaz əmlak vergisi***

Daşınmaz əmlak vergisi əmlakın yerləşdiyi ərazi üzrə yerli hakimiyyət tərəfindən torpağa, binalara və avtomobillər istisna olmaqla, amortizasiya edilən aktivlərə görə tutulur. Verginin dərəcəsi 1,4%-dir. Torpaq və binaların vergitutma bazası 3 ildə bir dəfə təkrar qiymətləndirilir. Amortizasiya edilən aktivlərin vergitutma bazası hər il vergi ödəyicisinin təqdim etdiyi bəyannamə məlumatlarına əsasən müəyyən edilir. Əmlak vergisindən əlavə, «Şəhər planlaşdırma aktı»na əsasən layihə ilə məşğul olan yerli hakimiyyət orqanları bu cür layihələrin maliyyələşdirilməsi üçün torpaq və binalara şəhərin planlaşdırılması vergisini tətbiq edə bilərlər. Yerli hakimiyyət verginin dərəcəsini 0,3%-ə qədər müəyyən edə bilər.

***Avtomobil və yüngül nəqliyyat vasitələri vergisi***

Bu vergi yerli bələdiyyələr tərəfindən avtomobil və yüngül nəqliyyat vasitələrindən (motosikllər də daxil olmaqla) tutulur. Vergini hər ilin yanvar ayının 1-də avtomobil və yüngül nəqliyyat vasitələrinə sahib olan müəssisələr ödəyirlər. Vergi dərəcəsi avtomobilin növünə görə müəyyən edilir.

Digər vergi və ödənişlər üzrə daxilolmaların ÜDM-ə nisbəti
*(faizlə)*




*İcmalı Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsi təqdim edib*

krossvord





*«Məhəllə» filmindən epizod*

**Yuxarıdan aşağı:** 1.İstiqaməti təyin etmək üçün tətbiq olunan ölçü cihazı; 2.Fransa istehsalı olan pendir növü; 3.Kamerunda ən iri şəhər; 4.İdman ayaqqabıları, geyimləri və bir sıra idman inventarlarının istehsalı üzrə ixtisaslaşmış Almaniyanın məşhur sənaye şirkəti; 5.Rəsmən müəyyən edilmiş ödəniş, rüsum; 6.İlin son ayı; 9.Hər birinin müstəqil partiyaları olan üç alət və ya üç səs üçün yazılmış musiqi əsəri; 13.Xaçmaz rayonunda qəsəbə; 15.Serbiyanın paytaxtı; 16.Azərbaycan estrada müğənnisi; 17.Oynaqların iltihabı; 18.Feodalizm dövründə Yaponiyada samuray qılınclarından biri; 20.Alğı-satqı, ticarət; 21.«Məhəllə» filmində Südabə xala obrazını canlandırmış aktrisanın adı.

**Soldan sağa:** 1.Komik rolları ifa edən aktyor; 5.RF-nin Tomsk vilayətində çay; 7.Sitrus meyvə; 8.Yay meyvəsi; 10.Filtrsiz siqaret markası, həmçinin gül adı; 11.Təyyarə ilə uçmaqdan qorxan şəxs; 12.Yunan mifologiyasında bolluq, bərəkət, artım (nəsiltörətmə) tanrısı, sürünün, arıların, balıqların və meyvələrin qoruyucusu; 14.Balaca kisə; 19.Dünya səviyyəli ABŞ yazıçısı və ictimai xadimi; 21.Çertyojlardan, yaxud şəkillərdən dəqiq surət çıxartmaq üçün xüsusi üsullarla hazırlanmış nazik şəffaf kağız; 22.Vulkandan çıxan ərgin odlu kütlə; 23.Kimya laboratoriyalarında mayeni qızdırmaq üçün işlədilən şüşə qab; 24.Milli musiqi aləti; 25.Xana-xana pambıq və ya ipək parça növü.

Tərtib etdi: Rafael

*Qəzetimizin ötən nömrəsində getmiş krossvordun cavabları:*

**Yuxarıdan aşağı:** 1.Babək; 2.Zakir; 3.Rəna; 4.Üzeyir *(Hacıbəyov)*; 5.Xilafət; 6.Klarnet; 9.Orden; 11.ÜDM; 13.Domra; 14.Almanax; 15.Auditor; 17.Era; 18.Ftorid; 21.Tvist; 22.Plaun; 23.Anji. **Soldan sağa:** 1.Bazardüzü; 5.Xok; 7.Bukingem; 8.Alma; 10.Kürd; 12.Mikrofon; 14.Amazon; 16.Septet; 19.Moderato; 20.Etap; 24.Nitq; 25.Franşiza; 26.Xor; 27.Badminton.

Vergilər
SOSİAL-İQTİSADİ HƏFTƏLİK
12 fevral 2000-ci ildən çıxır

Təsisçi:
Azərbaycan Respublikası Vergilər Nazirliyi

Baş redaktor:
Anar Əliyev
anar.eliyev@taxes.gov.az

Baş redaktor müavini:
Məti Osmanoğlu
redaksiya@vergiler.az

Qeydiyyat şəhadətnaməsi № R148
VÖEN: 1300327481
IBAN: AZ46ATAZ01200012258000138090
Atabank ASC. Kod: 507581
VÖEN: 9900006651

M/h: AZ50NABZ01350100000000032944
S.W.I.F.T. BIK ATAZAZ22

Ünvan:
AZ 1141, Bakı ş.,
Əbdürrəhim bəy Haqverdiyev küç., 60

Telefon:
012 403 87 89
012 403 87 95
(faks / abunə ilə bağlı)

«Vergilər» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və «Azərbaycan» nəşriyyatında çap olunmuşdur.

Tiraj: 8000

## idman

# Ötən ilin uğurları

### Azərbaycan gimnastları 2015-ci ildə rekord miqdarda (157) medal qazanıblar



Azərbaycan Gimnastika Federasiyasının yaydığı məlumata görə, 2014-cü ildə olduğu kimi, ötən il də Vətənə daha çox medalı bədii gimnastika nümayəndələri gətiriblər. Kişi idman gimnastikası 32 medal, akrobatlar 15 medal, qadın idman gimnastikası 11 medal və nəhayət, batut və aerobika gimnastikası hər biri 9 medal əldə edib. Ən çox medalı Marina Durunda (22) əldə edib. Ondan bir medal az (21) komanda üzrə rəfiqəsi Jalə Piriyeva və Azərbaycan Gimnastika Federasiyasının reytinq cədvəlində 1-ci yeri tutmuş Oleq Stepko qazanıb.

Sözsüz ki, idmançılarımız üçün ilin ən mühüm yarışlarından biri ilk Avropa Oyunları olub. Oleq Stepko biri qızıl (paralel qollar) olmaqla, 5 medal qazanan yeganə Azərbaycan idmançısıdır. O, daha bir medalı Eldar Səfərov və Pyotr Paxnyukla birgə komanda hesabında əldə edib. İlya Qrişunin batut gimnastikasında bürünc, Marina Durunda bədii gimnastika üzrə lentlə yarışlarda gümüş medala layiq görülüb. Ümumiyyətlə, lent ötən il Marina üçün ən uğurlu alət olub. O, dahi Üzeyir Hacıbəylinin «Fantaziya» əsərinin sədaları altında lentlə hərəkətlərdə Avropa çempionatının bürünc medalına sahib olub.

Ötən il dekabrın 24-də Azərbaycan Gimnastika Federasiyanın hesabat-seçki xarakterli 6-cı ümumi yığıncağı olub və Azərbaycanın birinci xanımı Mehriban Əliyeva yenidən qurumun prezidenti seçilib. Səsvermənin yekunlarına əsasən, fəaliyyətlərini Altay Həsənov vitse-prezident, Rauf Əliyev və Rafiq Behbudov isə federasiyanın İcraiyyə Komitəsinin üzvü kimi davam etdirəcəklər. Mariana Vasilyeva İcra Komitəsinin yeni üzvü seçilib.

Qarşıda idmançılarımızı müxtəlif beynəlxalq yarışlar, Avropa, dünya çempionatları və ən başlıcası, Rio-de-Janeyro Olimpiya Oyunları gözləyir. Marina Durunda və Oleq Stepkonun artıq bu oyunlara lisenziyaları var. Aprel ayında bədii gimnastika üzrə qrup komandasının, bir kişi və bir qadın idman gimnastikası təmsilçilərinin əlavə lisenziyalar əldə etmək şansı olacaq.

Bu il Bakıda 3 Dünya Kuboku - idman gimnastikası üzrə fevralda, batut gimnastikası üzrə martda və nəhayət, bədii gimnastika üzrə iyulda yarışlar təşkil ediləcək.

# Yenə də Lionel Messi...



FİFA-nın mənzil-qərargahının yerləşdiyi İsveçrənin Sürix şəhərində «Kongresshaus»da keçirilən «FİFA Qızıl Top 2015» mərasimində dünyanın ən yaxşı futbolçusunun adı müəyyənləşib.

Mükafata «Qızıl Top»un dördqat (2009, 2010, 2011, 2012) qalibi Lionel Messi, «Barselona»nın digər futbolçusu Neymar və üç dəfə (2008, 2013, 2014) bu titula layiq görülmüş «Real Madrid» klubunun hücumçusu Kriştianu Ronaldo namizəd olublar. Səsvermənin nəticələrinə əsasən, 2015-ci ilin ən yaxşı futbolçusu adına Lionel Messi layiq görülüb. Argentinalı bu mükafata beşinci dəfə sahib çıxmaqla dünya futbol tarixində ilkə imza atıb. Qadın futbolçular arasında isə «Qızıl Top»un sahibi ABŞ yığmasının yarımmüdafiəçisi Carli Lloyd olub.

«Ən yaxşı məşqçi» nominasiyasında seçim Xosep Qvardiola (İspaniya), Luis Enrike (İspaniya) və Xorxe Sampaoli (Argentina) arasında aparılıb. «Barcelona»nın çalışdırıcısı Luis Enrike dünyanın ən yaxşı kişi baş məşqçisi, ABŞ-ın qadın yığmasına rəhbərlik edən Jill Ellis isə dünyanın ən yaxşı qadın məşqçisi seçilib. Bundan əlavə, Braziliya yığmasının hücumçusu Vendell Liranın qolu 2015-ci ilin ən yaxşı qolu seçilib və «Puşkaş» mükafatına layiq görülüb.

Səsvermədə FİFA-ya üzv olan 207 ölkənin yığma komandalarının baş məşqçiləri, kapitanları, eləcə də jurnalistlər iştirak ediblər. Respondentlər birinci yer üçün 5, ikinci yer üçün 3 və üçüncü yer üçün 1 xal verirlər və yekunda ən çox xal toplayan namizəd həmin nominasiya üzrə qalib elan olunur.



# Arda Turan «Barselona»da debüt etdi

Türkiyə millisinin futbolçusu Arda Turan «Barselona»nın heyətində ilk rəsmi oyununu keçirib. Bu, İspaniya kubokunun 1/8 final mərhələsinin ilk oyunu çərçivəsində keçirilən «Espanyol»la görüşə təsadüf edib. Qeyd edək ki, mövsümün əvvəlində «Atletiko»dan «Barselona»ya keçən Arda Turan FİFA-nın Kataloniya təmsilçisinə tətbiq etdiyi transfer qadağası səbəbindən yanvar ayına qədər komandasına kömək edə bilməyib.

# Rafael Ağayev ispanlara dərs keçdi



Azərbaycanın tanınmış karate ustası Rafael Ağayev xüsusi dəvətlə İspaniyada olub və Marbella Olimpik Karate Klubunda yerli idmançılar üçün təlim keçirib. İspaniya mətbuatının yazdığına görə, bu, Olimpiya Karate Məktəbi metodologiyası üzrə yüksək səviyyəli tədbirdir. Rafael Ağayev dördqat dünya çempionu olmuş yeganə karateçidir və onun təlimində iştirak böyük şans kimi dəyərləndirilir.

## mozaika

kainat



# Planetl rin «parad »

Planetlərin düzülüşü ən ecazkar astronomik hadisələrdən hesab olunur. Yanvarın 25-dən planetlərin düzülüşü başlayacaq. Yanvarın 27-də Yer kürəsinin təbii peyki olan Ay öz yerini dəyişəcək, yanvarın 28-də isə artıq Yupiterin yanında olacaq.

Azərbaycan Milli Elmlər Akademiyasından (AMEA) bildiriblər ki, bu barədə AMEA-nın Şamaxı Astrofizika Rəsədxanası direktorunun müavini, fizika üzrə fəlsəfə doktoru Xıdır Mikayılov məlumat verib. Alim qeyd edib ki, planetlərin düzülüşü yanvarın 29-da görünsə də, bu kosmik hadisənin ən maraqlı görüntüsünü yanvarın 31-də saat 7.00-dan sonra müşahidə etmək mümkün olacaq. Belə ki, göydə ardıcıllıq üzrə Yupiter, Ay, Mars, Saturn, Venera, Merkuri düzüləcək. Səmada bu göy cisimləri bir-birinə yaxın məsafədə yerləşəcək. Günəş çıxdıqdan sonra isə onun işıltısı planetlərin görüntüsünü itirəcək.

tədqiqat

# Sarğı da «ağıllanır»



Massaçusets Texnologiya İnstitutunun tədqiqatçıları içərisində elektronika və dərman olan yeni sarğı növü yaradıblar. Bu sarğı yaraya insanın köməyi olmadan qulluq edir. Yeni kəşf olunan «ağıllı» sarğı dərinin temperaturuna nəzarət edir, avtomatik surətdə infeksiyaya qarşı dərman buraxır.

Hidrogeldən düzəldilən möhkəm sarğı yetərincə elastikdir, hətta dizdə və dirsəkdə olduğu halda hərəkətləri məhdudlaşdırmır. Onun içində innovasiyalı ötürücülər var. 90 faiz sudan ibarət olan hidrogel insan dərisinin xüsusiyyətlərini təkrar edir. Gel titan, alüminium, silikon, keramika, qızıl kimi materiallarla və adətən elektron komponentlərin hazırlanmasında istifadə olunan başqa maddələrlə güclü qarşılıqlı əlaqə yaradır. Gelin içərisindən keçən titan tellər sarğını cərəyan keçirən edir, onun içinə elektron qurğular, məsələn, yarımkeçirici çiplər yeritməyə imkan verir. Sarğıya işıq diodları da quraşdırılıb. Yaranın temperaturu müəyyən həddə çatanda və ya dərman bitəndə bu diodlar yanmağa başlayır. Sarğı təcili ixtisaslı yardım tələb olunanda uzaq məsafədən həkimi xəbərdar edə bilir.

Yeni sarğının müəllifi Szuanxe Cjao «ağıllı» gelə bənzər elastik, orqanik elektronika hazırlamağa ümid bəsləyir. Bu vasitəni hətta bədənə implantasiya etmək də mümkün olacaq.

Qeyd edək ki, «ağıllı» sarğı, ilk növbədə, daim tibbi nəzarət tələb edən və infeksiya riskinin yüksək olduğu yanıqlar üzərində sınaqdan keçiriləcək.

camiyyat

# Şahzadələrin toy tortunun qiyməti

Uels şahzadəsi Diana və şahzadə Çarlzın 1981-ci ildə baş tutan toy mərasimdə kəsdikləri tortun bir parçası qablaşdırılaraq saxlanılmışdı. Kral ailəsinə məxsus həmin tort dilimi 34 ildən sonra hərracda 1375 ABŞ dollarına satılıb. Qutunun üzərində gümüşü hərflərlə şahzadə Çarlzın və Diananın adlarının baş hərifləri «CD/ Bukinhem sarayı/29 iyul 1981» yazılıb.

Şahzadə Uilyam və Keyt Midltonun 2011-ci il aprelin 29-da olmuş toyunun tort dilimi isə 2013-cü ildə hərracda 4 min ABŞ dollarına satılmışdı.

araşdırma

# İnsan qoxusu verən çiçək

Adətən, insandan çiçək ətri gəlməsinə böyük diqqət və həssaslıq göstərilir. Demə, çiçək də insan ətri verirmiş. Vaşinqton Universitetinin (ABŞ) alimləri insan bədəninin ətrinə bənzər qoxusunun köməyi ilə tozlanmaq üçün həşəratları cəlb edən səhləb çiçəyi təsvir ediblər. «Platanthera obtusata» çiçəyi ağcaqanad növlərindən birini belə cəlb edir. Alimlər tədqiqatın nəticələrini inteqrativ və müqayisəli biologiyaya dair ənənəvi konfransda təqdim ediblər.



Bioloqlar bu mexanizmi səhləb çiçəyinin ifraz etdiyi maddənin kimyəvi analizindən sonra təsdiq ediblər. Bunun üçün onlar səhləb çiçəyini hermetik torba ilə örtərək analiz üçün komponentlərini toplayıblar. Çiçəklər üçün ümumi olan xüsusiyyətlərlə bərabər, alimlər insan bədəni üçün səciyyəvi, insanın özünün zəif duya biləcəyi, lakin ağcaqanadları cəlb edən qoxu aşkar ediblər.

Bu bitki ABŞ ərazisindəki bataqlıqlarda yayılıb. Qansoran həşəratlar yaxşı tozlandırıcılar sayılmasa da, bu mühitdə seçim böyük deyil. Səhləb çiçəyi də tozlanması üçün «çarəsizlikdən» məhz bu həşəratları seçib.

Beləliklə, tozlandırıcı cəlb etmək üçün səhləb çiçəyinin istifadə etdiyi növbəti orijinal mexanizm təsvir olunub. Daha əvvəl nektarın, iylənmiş ətin qoxusundan, hətta dişi həşəratın forma və qoxusundan istifadə edən növlər təsvir edilib. Bundan başqa, yeni tədqiqat ağcaqanadları tələf etməkdən ötrü onlara təbii kimyəvi maddələrdən istifadə yolu ilə səmərəli tələ qurulması üçün faydalı ola bilər.

faydalı

# Evdə lazım olar

- Qab dəstinizin içində hansısa əşya çatlayıbsa, onu atmağa tələsməyin. Qabın sınmasının qarşısını almaq üçün onu bir qazana qoyub üstünə ağzına qədər süd tökün. Vam odda 45 dəqiqə qaynadın və soyudun. Çatlardan əsər qalmayacaq.
- Daha dadlı alınması üçün bananı sobada qızartmaq məsləhətdir. Doğranmış bananı tavaya düzüb üzərinə kərə yağı qoyun, limon şirəsi əlavə edib 180 dərəcə isidilmiş sobada 8 dəqiqə bişirin.
- Ərinmiş kərə yağı qaxsıyanda içərisinə doğranmış kök atıb bir az vam odda qaynadın.
- Balığı 15 dəqiqə duzlu suda saxlasanız, qızardanda dağılmayacaq.
- Salata soğan qatmaq istəsəniz, xırda doğranmış soğanı aşsüzənə qoyub üstünə qaynar su tökün. Soğanın acılığı gedəcək.
- Qıcqırmış mayonezə bir az buzlu su töküb qarışdırmaqla keyfiyyətini bərpa etmək olur.
- Büllur qabları isti su ilə yumaq olmaz. İsti suyun təsiri ilə onların rəngi qaralır və parıltısı solur.
- Alüminium qabları parıldatmaq üçün yuduqdan sonra naşatır spirti qatılmış su ilə yaxalayın.

### Müdriklər deyib ki...



***«Həyat yaşla deyil, yaşamaqla dərk edilir».***

***Andre Jid (1869-1951)***